# ELMİ TƏDQİQAT

Beynəlxalq onlayn elmi jurnal

# SCIENTIFIC RESEARCH

International online scientific journal

aem.az

AEM

e-ISSN: 2789-6919

AZƏRBAYCAN RESPUBLİKASI

THE REPUBLIC OF AZERBAIJAN

# ELMİ TƏDQİQAT

**Beynəlxalq onlayn elmi jurnal**
**İmpakt Faktor: 0.543**

**Cild: 2 Sayı: 8**

# SCIENTIFIC RESEARCH

**International online scientific journal**
**Impact Factor: 0.543**

**Volume: 2 Issue: 8**

**Bakı – Baku**
**2022**

Jurnal 01.03.2021-ci ildə
Azərbaycan Respublikası
Ədliyyə Nazirliyi
Mətbu nəşrlərin reyestrinə
daxil edilmişdir.
Reyestr № 4336

On 01.03.2021, the journal was
included in the register
of Press publications of the
Ministry of Justice of the
Azerbaijan Republic
Registration № 4336

**Redaksiyanın ünvanı:**
Az1073, Bakı şəh.,
Mətbuat prospekti, 529,
"Azərbaycan" nəşriyyatı,
6-cı mərtəbə

**Editorial address:**
Az1073, Baku,
Matbuat avenue, 529,
"Azerbaijan" Publishing House,
6-th floor

**Tel.:** +994 50 209 59 68
+994 55 209 59 68
+994 99 807 67 68
+994 12 510 63 99

**e-mail:**
tedqiqat1707@aem.az

## Beynəlxalq indekslər / International indices

**e-ISSN: 2789-6919**
**DOI: 10.36719**

© Jurnalda çap olunan materiallardan istifadə edərkən istinad mütləqdir.
© It is necessary to use reference while using the journal materials.
© https://aem.az
© info@aem.az

**Təsisçi və baş redaktor**
**Tədqiqatçı Mübariz HÜSEYİNOV**, Azərbaycan Elm Mərkəzi / Azərbaycan
+994 50 209 59 68
tedqiqat1868@gmail.com
ORCID ID 0000-0002-5274-0356

**Founder and Editor-in-Chief**
**Researcher Mubariz HUSEYINOV**, Azerbaijan Science Center / Azerbaijan
+994 50 209 59 68
tedqiqat1868@gmail.com
ORCID ID 0000-0002-5274-0356

**Redaktor**
**Assoc. Prof. Dr. İlham MƏMMƏDLİ**, AMEA Ədəbiyyat İnstitutu / Azərbaycan
m_ilham63@mail.ru

**Editor**
**Assoc. Prof. Dr. Ilham MAMMADLI**, ANAS Institute of Literature / Azerbaijan
m_ilham63@mail.ru

**Redaktor köməkçisi**
**Doktorant Arzu İSGƏNDƏRZADƏ**, AMEA Dilçilik İnstitutu / Azərbaycan
arzuferecli.isgenderzadeh@gmail.com

**Assistant editor**
**PhD Student Arzu ISGENDERZADE**, ANAS İnstitute of Linguistic / Azerbaijan
arzuferecli.isgenderzadeh@gmail.com

**Dillər üzrə redaktorlar**

**Prof. Dr. Abbas ABBASOV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Aytac ZEYNALOVA**, Azərbaycan Dillər Universiteti / Azərbaycan

**Language editors**

**Prof. Dr. Abbas ABBASOV**, Baku State University / Azerbaijan
**Assoc. Prof. Dr. Aytaj ZEYNALOVA**, Azerbaijan University of Languages / Azerbaijan

**Elmi sahələr üzrə redaktorlar**

**Prof. Dr. Şəhla SƏMƏDOVA**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Müseyib İLYASOV**, Azərbaycan Dövlət Pedaqoji Universiteti / Azərbaycan
**Prof. Dr. Əli ZALOV**, Azərbaycan Dövlət Pedaqoji Universiteti / Azərbaycan
**Prof. Dr. Yaşar MEHRƏLİYEV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Xatirə HÜSEYNOVA**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Afərin ABBASOVA**, Qərbi Kaspi Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Həbibə ALLAHVERDİYEVA**, Naxçıvan Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Şəfəq ABDULLAYEVA**, Azərbaycan Dillər Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Elza ORUCOVA**, Azərbaycan Tibb Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Mahir HACIYEV**, Heyvandarlıq Elmi-Tədqiqat İnstitutu / Azərbaycan
**Assoc. Prof. Dr. Ramiz ƏHLİMANOV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Tərxan CƏBRAYILOV**, Azərbaycan Memarlıq və İnşaat Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Zəfər CƏFƏROV**, Azərbaycan Memarlıq və İnşaat Universiteti / Azərbaycan
**Dr. Fuad RZAYEV**, AMEA Zoologiya İnstitutu / Azərbaycan

**Editors in scientific fields**

**Prof. Dr. Shahla SAMADOVA**, Baku State University / Azerbaijan
**Prof. Dr. Museyib ILYASOV**, Azerbaijan State Pedagogical University / Azerbaijan
**Prof. Dr. Ali ZALOV**, Azerbaijan State Pedagogical University / Azerbaijan
**Prof. Dr. Yashar MEHRALIYEV**, Baku State University / Azerbaijan
**Assoc. Prof. Dr. Khatira HUSEYINOVA**, Baku State University / Azerbaijan
**Assoc. Prof. Dr. Afarin ABBASOVA**, Western Caspian University / Azerbaijan
**Assoc. Prof. Dr. Habiba ALLAHVERDIYEVA**, Nakhchivan State University / Azerbaijan
**Assoc. Prof. Dr. Shafag ABDULLAYEVA**, Azerbaijan University of Languages / Azerbaijan
**Assoc. Prof. Dr. Elza ORUJOVA**, Azerbaijan Medical University / Azerbaijan
**Assoc. Prof. Dr. Mahir HAJIYEV**, Animal Husbandry Scientific Research Institute / Azerbaijan
**Assoc. Prof. Dr. Ramiz AHLIMANOV**, Baku State University / Azerbaijan
**Assoc. Prof. Dr. Tarkhan JABRAYILOV**, Azerbaijan University of Architecture and Construction / Azerbaijan
**Assoc. Prof. Dr. Zafar JAFAROV**, Azerbaijan University of Architecture and Construction / Azerbaijan
**Dr. Fuad RZAYEV**, Institute of Zoology of ANAS / Azerbaijan

# REDAKSİYA HEYƏTİ

## Humanitar və ictimai elmlər bölməsi

**Prof. Dr. Nərgiz AXUNDOVA**, AMEA Tarix İnstitutu / Azərbaycan
**Prof. Dr. Yerden KAJIBEK**, Qazax dili Akademiyası / Qazaxıstan
**Prof. Dr. İrina KREYDİÇ**, Ukrayna Milli Texniki Universitetinin İqor Sikorski adına Kiyev Politexnik İnstitutu / Ukrayna
**Prof. Dr. Qəzənfər KAZIMOV**, AMEA Dilçilik İnstitutu / Azərbaycan
**Prof. Dr. Coanna MARŞALEK-KAVA**, Nikolay Kopernik Universiteti / Polşa
**Prof. Dr. Uuganbayar MYAGMARSUREN**, Monqolustan Dövlət Universiteti / Monqolustan
**Prof. Dr. Natalya MİŞİNA**, Odessa Hüquq Akademiyası / Ukrayna
**Prof. Dr. Svetlana KOJİROVA**, L.N.Qumilyov adına Avrasiya Milli Universiteti / Qazaxıstan
**Prof. Dr. Masumə DAEİ**, Təbriz Payame Noor Universiteti / İran İslam Respublikası
**Prof. Dr. Yelena ŞIŞKİNA**, Həştərxan Dövlət Memarlıq-İnşaat Mühəndisliyi Universiteti / Rusiya
**Prof. Dr. Cihan ÖZDEMİR**, Biləcik Şeyx Edəbali Üniversiteti / Türkiyə
**Prof. Dr. Şikar QASIMOV**, Azərbaycan Texniki Universiteti / Azərbaycan
**Prof. Dr. İya ZUMBULADZE**, Kutaisi Dövlət Universiteti / Gürcüstan
**Prof. Dr. Elza MOLLAYEVA**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Rəşid CABBAROV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Asiman QULİYEV**, Azərbaycan Dövlət İqtisad Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Kulaş MAMİROVA**, Qazaxıstan Milli Qadın Pedaqoji Univeristeti / Qazaxıstan
**Assoc. Prof. Dr. Andrey RAGULİN**, Rusiya Federasiyasının DİN Moskva Universiteti / Rusiya
**Assoc. Prof. Dr. Elza ALIŞOVA**, Girne Amerikan Universiteti / Türkiyə
**Assoc. Prof. Dr. Dürdanə MƏMMƏDOVA**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Gülnoz SATTOROVA**, ÖREA Özbək Dili, Ədəbiyyatı və Folkloru İnstitutu / Özbəkistan
**Assoc. Prof. Dr. Rəşad HÜSEYNOV**, Xəzər Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. İlkin QULUSOY**, Qafqaz Universiteti / Türkiyə
**Assoc. Prof. Dr. Qərənfil QULİYEVA**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Dr. Hacer DOLANBAY**, Muş Alparslan Universiteti / Türkiyə
**Dr. Rövşən RAMİZOĞLU**, Selcuk Universiteti / Türkiyə

## Təbiət elmləri bölməsi

**Prof. Dr. Eldar QASIMOV**, Azərbaycan Tibb Universiteti / Azərbaycan
**Prof. Dr. Onur URAL**, Selcuk Universiteti / Türkiyə
**Prof. Dr. Nikolay BRİKO**, İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universiteti / Rusiya
**Prof. Dr. Duyğu KILIÇ**, Amasya Universiteti / Türkiyə
**Prof.Dr. İlham ŞAHMURADOV**, AMEA Botanika İnstitutu / Azərbaycan
**Prof. Dr. Zöhrab QARAYEV**, Azərbaycan Tibb Universiteti / Azərbaycan
**Prof. Dr. Mehmet ÜNLÜ**, Marmara Universiteti / Türkiyə
**Prof. Dr. İlham KAZIMOV**, M.Topçubaşov adına Elmi Cərrahiyyə Mərkəzi / Azərbaycan
**Prof. Dr. İbadulla AĞAYEV**, Azərbaycan Tibb Universiteti / Azərbaycan
**Prof. Dr. David MENABDE**, Kutaisi Dövlət Unversiteti / Gürcüstan
**Prof. Dr. Elxan NURİYEV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Dr. Asif MANAFOV**, AMEA Zoologiya İnstitutu / Azərbaycan
**Dr. Elçin HÜSEYN**, Azərbaycan Dövlət Neft və Sənaye Universiteti / Azərbaycan
**Prof. Ali AZQANİ**, Taylerdəki Texas Universiteti / ABŞ
**Dr. Xanzoda YULDAŞEVA**, Tibb İşçilərinin Peşə Kvalifikasiyasının İnkişafı Mərkəzi / Özbəkistan
**Assoc. Prof. Dr. Şəkər MƏMMƏDOVA**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Şikar ƏHMƏDOV**, Əkinçilik Elmi-Tədqiqat İnstitutu / Azərbaycan
**Assoc. Prof. Dr. Arif HÜSEYNOV**, Azərbaycan Dövlət Aqrar Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Ramiz ƏHLİMANOV**, Bakı Dövlət Unversiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Aytəkin AXUNDOVA**, Bakı Slavyan Universiteti / Azərbaycan
**Dr. Svetlana QORNOVSKAYA**, Beloserkovsk Milli Aqrar Universiteti / Ukrayna

## Dəqiq elmlər bölməsi

**Prof. Dr. Yusif MƏMMƏDOV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Eldar VƏLİYEV**, Milli Texniki Universitet / Ukrayna
**Prof. Dr. Eldar MƏSİMOV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Maarif CƏFƏROV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Səadət KƏRİMİ**, Kral Texnologiya İnstitutu / İsveç

## Texnika elmləri bölməsi

**Prof. Dr. Cəlaləddin MƏMMƏDOV**, Azərbaycan Dövlət Aqrar Universiteti / Azərbaycan
**Prof. Dr. Valeriy LİSENKO**, Ümumrusiya Metroloji Xidmət Elmi-Tədqiqat İnstitutu / Rusiya
**Assoc. Prof. Dr. Şahlar BABAYEV**, Azərbaycan Dövlət Aqrar Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Elov BOTİR**, Ə.Nəvai adına Daşkənd Dövlət Özbək Dili və Ədəbiyyatı Univeristeti / Özbəkistan

# EDITORIAL BOARD

## Humanities and social sciences section

**Prof. Dr. Nargiz AKHUNDOVA**, Institute of History of ANAS / Azerbaijan
**Prof. Dr. Erden KAJIBEK**, Kazakh Language Academy / Kazakhstan
**Prof. Dr. Irina KREYDİCH**, National Technical University of Ukraine «Igor Sikorsky Kyiv Polytechnic Institute» / Ukraine
**Prof. Dr. Gazanfar KAZIMOV**, Institute of Linguistics of ANAS / Azerbaijan
**Prof. Dr. Joanna MARSZALEK-KAWA**, Nicolaus Copernicus University / Poland
**Prof. Dr. Uugunbayar MYAGMARSUREN**, Mongolian State University / Mongolia
**Prof. Dr. Natalya MISHINA**, Odessa Law Academy / Ukraine
**Prof. Dr. Svetlana KOJIROVA**, L.N. Gumilyov Eurasian National University / Kazakhstan
**Prof. Dr. Masuma DAEI**, Payame Noor University of Tabriz / Islamic Republic of Iran
**Prof. Dr. Yelena SHISHKINA**, Astrakhan State University of Architecture and Construction Engineering / Russia
**Prof. Dr. Cihan OZDEMIR**, Bilecik Şeykh Edebali University / Turkey
**Prof. Dr. Shikar GASIMOV**, Azerbaijan Technical University / Azerbaijan
**Prof. Dr. Iya ZUMBULADZE**, Kutaisi State University / Georgia
**Assoc. Prof. Dr. Rashid JABBAROV**, Baku State University / Azerbaijan
**Assoc. Prof. Dr. Asiman GULIYEV**, Azerbaijan State University of Economics / Azerbaijan
**Assoc. Prof. Dr. Kulash MAMIROVA**, Kazakhstan National Woman Pedogogical Institute / Kazakhstan
**Assoc. Prof. Dr. Andrey RAGULIN**, Moscow University of the Ministry of Internal Affairs of the Russian Federation / Russia
**Assoc. Prof. Dr. Elza ALISHOVA**, Girne American University / Turkey
**Assoc. Prof. Dr. Durdana MAMMADOVA**, Baku State University / Azerbaijan
**Assoc. Prof. Dr. Gulnoz SATTOROVA**, Institute of Uzbek Language, Literature and Folklore of the Uzbekistan Academy of Sciences / Uzbekistan
**Assoc. Prof. Dr. Rashad HUSEYNOV**, Khazar University / Azerbaijan
**Assoc. Prof. Dr. İlkin GULUSOY**, Kafkas University / Turkey
**Assoc. Prof. Dr. Garanfil GULIYEVA**, Baku State University / Azerbaijan
**Dr. Hajer DOLANBAY**, Mush Alparslan University / Turkey
**Dr. Rovshan RAMIZOGLU**, Seljuk University / Turkey

## Natural sciences section

**Prof. Dr. Eldar GASIMOV**, Azerbaijan Medical University / Azerbaijan
**Prof. Dr. Onur URAL**, Seljuk University / Turkey
**Prof. Dr. Nikolai BRIKO**, First Moscow State Medical University named after I.M.Sechenov / Russia
**Prof. Dr. Duygu KILICH**, Amasya University / Turkey
**Prof.Dr.Ilham SHAHMURADOV**, Institute of Botany of ANAS / Azerbaijan
**Prof. Dr. Zohrab GARAYEV**, Azerbaijan Medical University / Azerbaijan
**Prof. Dr. Mehmet UNLU**, Marmara University / Turkey
**Prof. Dr. Ilham KAZIMOV**, Scientific Surgery Center named after M.Topchubashov / Azerbaijan
**Prof. Dr. Ibadulla AGHAYEV**, Azerbaijan Medical University / Azerbaijan
**Prof. Dr. David MENABDE**, Kutaisi State University / Georgia
**Prof. Dr. Elkhan NURIYEV**, Baku State University / Azerbaijan
**Dr. Asif MANAFOV**, Institute of Zoology of ANAS / Azerbaijan
**Dr. Elchin HUSEYN**, Azerbaijan State University of Oil and Industry / Azerbaijan
**Prof. Ali AZGANY**, University of Texas at Tyler / USA
**Dr. Khanzoda YULDASHEVA**, Center for Professional Development of Medical Workers / Uzbekistan
**Assoc. Prof. Dr. Shakar MAMMADOVA**, Baku State University / Azerbaijan
**Assoc. Prof. Dr. Shikar AHMADOV**, Agricultural Scientific Research Institute / Azerbaijan
**Assoc. Prof. Dr. Arif HUSEYNOV**, Azerbaijan State Agrarian University / Azerbaijan
**Assoc. Prof. Dr. Ramiz AHLIMANOV**, Baku State University / Azerbaijan
**Assoc. Prof. Dr. Aytekin AKHUNDOVA**, Baku Slavic University / Azerbaijan
**Dr. Svetlana GORNOVSKAYA**, Beloserkovsk National Agrarian University / Ukraine

## Exact sciences section

**Prof. Dr. Yusif MAMMADOV**, Baku State University / Azerbaijan
**Prof. Dr. Eldar VALIYEV**, National Technical University / Ukraine
**Prof. Dr. Eldar MASIMOV**, Baku State University / Azerbaijan
**Prof. Dr. Maarif JAFAROV**, Baku State University / Azerbaijan
**Assoc. Prof. Dr. Saadat KARIMI**, Royal İnstitute of Technology / Sweden

## Technical sciences section

**Prof. Dr. Jalaladdin MAMMADOV**, Azerbaijan State Agrarian University / Azerbaijan
**Prof. Dr. Valery LISENKO**, All-Russian Metrological Service Research Institute / Russia
**Assoc. Prof. Dr. Shahlar BABAYEV**, Azerbaijan State Agrarian University / Azerbaijan
**Assoc. Prof. Dr. Elov BOTIR**, Tashkent State University of Uzbek Language and Literature named after A.Navai / Uzbekistan

**HUMANİTAR VƏ İCTİMAİ ELMLƏR**

**HUMANITIES AND SOCIAL SCIENCES**

DOI: https://doi.org/10.36719/2789-6919/12/6-9

**Aynur Yaqub qızı Mahmudova**
Azərbaycan Dövlət Pedaqoji Universiteti
aynur.mahmud@bk.ru

# UŞAĞIN PSİXİ İNKİŞAFINA DAİR İRƏLİ SÜRÜLƏN ƏSAS NƏZƏRİYYƏLƏRİN ÜMUMİ SƏCİYYƏSİ

**Xülasə**

Uşağın psixi inkişafı ilə bağlı irəlü sürülən nəzəriyyələr uşaq psixologiyasının inkişafında böyük rola malikdir. Məhz bu nəzəriyyələrin tərəfdarlarının irəli sürdüyü fikirlər sayəsində bir- birinə zidd və yaxud yaxın olan yanaşmalar meydana çıxmışdır. Bir çox psixoloji tədqiqatlar bu nəzəriyyələrdə irəli sürülmüş ideyalara istinadən aparılmışdır. Hər bir ideya özlüyündə müəyyən fakt və qanunauyğunluqla ifadə olunur. Klassik nəzəri ideyalar müasir psixoloji xidmətin bünövrəsini təşkil edir. İrəli sürülmüş nəzəriyyələrin təcrübəyə tətbiq olunması bu ideyaların təsdiqinə və ya inkarına səbəb olmuşdur.
***Açar sözlər:*** *psixoloji, nəzəri, inkişaf, uşaq, amil*

**Aynur Yagub Mahmudova**

## A general description of the main theories put forward on the child's mental development

**Abstract**

The theories advanced about the child's mental development have a great role in the development of child psychology. It is thanks to the ideas put forward by the supporters of these theories that opposite or close approaches have appeared. Many psychological studies have been conducted with reference to the ideas advanced in these theories. Each idea in itself is expressed by a certain fact and regularity. Classical theoretical ideas form the foundation of modern psychological services. Applying the advanced theories to practice has led to confirmation or denial of these ideas.
***Keywords:*** *psychological, theoretical, developmental, child, factor*

## Giriş

Müasir elmi psixologiyanın ən çox inkişaf etmiş sahələrindən olan uşaq psixologiyası əhatəli elmi – psixoloji istiqamətdə uşağın inkişafının qanunauyğunluqlarını, çoxsaylı faktları və psixososial inkişafın şərait və amillərini öyrənir. Uşağın inkişafı sahəsində toplanmış zəngin faktiki materialların nəzəri əsaslarının işlənilməsinin çox mühüm əhəmiyyəti vardır. Məhz bu əsasda faktların ümumiləşdirilməsinə müvəffəqiyyətlə nail olmaq mümkündür. Sonuncuya istinadən uşağın psixoloji inkişafının ümumi nəzəri əsaslarını və müvafiq qanunauyğunluqlarını bir sistem halında ümumiləşdirmək olar. Nəzəri yanaşma zəminində toplanmış faktların izahı və təhlili obyektiv göstəricilər əsasında reallaşdırıla bilər. Bununla əlaqədar olaraq uşağın psixogenetik inkişafına dair irəli sürülən bəzi klassik və müasir nəzəriyyələrin tarixi – psixoloji mahiyyətinin açıqlanaraq xarakterizə edilməsi istər nəzəri və istərsə də praktik tətbiqi baxımdan maraq doğurmaya bilməz.

İnkişafın tarixi – psixoloji və psixogenetik problemlərinin araşdırılmasının ilk istiqamətini psixi inkişafın hərəkətverici qüvvələrinə dair obyektiv təsəvvürün formalaşdırılmasının rolunun ön plana çəkilməsi təşkil edir. İnkişafın mənbəyinin müəyyənləşdirilməsi zəminində əsas inkişafetdirici amillərin mövqeyini və təsir imkanlarını obyektiv planda təhlil edərək ümumiləşdirmək olar: a) insanın inkişafında bioloji və anadangəlmə imkanların əhəmiyyəti; b) inkişafda sosial təsirlərin, mühitin və həyat boyu toplanılan təcrübənin mövqeyi; Hər iki amil ümumipsixoloji nəzəri yanaşma kimi xarakterizə olunmalı və onların təsir imkanları əhatəli planda təhlil edilməlidir. Bu əsasda işlənilən nəzəriyyələr iki aspekti ön plana çəkir: 1) anadangəlmə bioloji imkanlar inkişafın ümumi istiqamətini

təyin edir; 2) inkişafda sosial amillərin aparıcı rolu xüsusi olaraq nəzərə alınır (Qədirov, 2002: 37). Qeyd edilən iki istiqamət psixi inkişafa olan müxtəlif xarakterli yanaşmaların tarixi – psixoloji mahiyyətinin əsasını təşkil edir.

Elmi psixologiyanın inkişafı tarixində insanın ontogenetik inkişafında bioloji və sosial amillərin mövqeyinə fərqli münasibət bəslənilmişdir. Keçən əsrin əvvəllərinə qədər geniş yayılmış mövqeyə uyğun olaraq belə bir ümumi fikir əsaslandırılırdı ki, psixososial inkişaf spontan xarakterli dinamik hadisədir və burada bioloji və anadangəlmə determinantların rolu ön plana çəkilməlidir. İnkişafın bütövlükdə bioloji determinizm ideyasına əsaslanması reallığa tam uyğun gəlməyindən tənqidi münasibət doğurdu və bu əsasda sosial amilləri rolu məsələsinə olan ictimai marağı çox ciddi surətdə fəallaşdırdı. Bu yanaşmada sosial öyrətmənin rolu daha əhəmiyyətli sayılırdı. Inkişafla bağlı irəli sürülən iki ümumpsixoloji nəzəriyyə ilə əlaqədar klassik uşaq psixologiyasında müxtəlif xarakterli konkret konsepsiyalar irəli sürülmüşdür.

Psixi inkişafın bioloji imkanlara əsaslanması ilə əlaqədar irəli sürülən iki konsepsiya diqqəti cəlb edir: a) etoloji konsepsiya b) psixoanalitik konsepsiya. Hər iki yanaşmada psixi inkişafla əlaqədar olaraq irəli sürülən ideyalar klassik psixologiyada geniş yayılmışdır.

Uşağın psixi inkişafına etoloji yanaşmanın formalaşmasında Ç.Darvinin irəli sürdüyü ideyaların böyük əhəmiyyəti olmuşdur. Ç.Darvinin ideyalarına istinadən sonralar çoxlu sayda nəzəri yanaşmalar və baxışlar irəli sürülmüşdür.

Qeyd etmək lazımdır ki, uşaq psixologiyasında uşağın psixi inkişafına etoloji baxımdan yanaşma hal – hazıra kimi psixologiyada geniş surətdə müzakirə olunur. Etoloqların mövqeyinə görə, insan başqa canlılarda olduğu kimi, davranışın müəyyən anadangəlmə formaları ilə doğulur və onların təzahüründə mühitin təsirləri əsas aktivləşdirici rol oynayırlar. Davranışın bəzi formaları inkişafın müvafiq mərhələsində təzahür edərək inkişafa doğru istiqamətlənirlər. belə tipli mərhələləri inkşafın senzitiv dövrləri adlandırırlar. Senzitivlik inkişafın daha səmərəli və keyfiyyətli olmasını xarakterizə edir. Lakin insanın inkişafını bütövlükdə anadangəlmə instinktiv davranış formaları ilə əlaqələndirməyə heç bir əsas yoxdur. Belə ki, insan sosial varlıqdır və onun inkişafı başqa tipli obyektiv qanunauyğunluqlarla tənzim olunur. Odur ki, etoloji yanaşma uşaq psixologiyasında nəzəri prinsipə çevrilmədi və psixoloqların ciddi tənqidi münasibətinə məruz qaldı. Əlavə etmək lazımdır ki, uşaq psixologiyasında mövcud olan etoloji yanaşmanın davamı olaraq bağlılıq nəzəriyyəsi adlanan psixoloji istiqamət də irəli sürülmüşdür. Bağlılıq nəzəriyyəsində əsas inkişafetdirici amil rolunu uşaq – ana münasibətləri təşkil edir. Belə bir ümumi mövqe əsaslandırılır ki, yaşlı ilə bağlılıq zəminində uşağın psixososial inkişafının əsası qoyulur. Bu proses əhəmiyyətli kəmiyyət və keyfiyyət dəyişikliklərinin ardıcıl olaraq reallaşdırılması ilə müşayiət olunur. Ana – uşaq qarşılıqlı münasibətlərində qazanılan təcrübə uşağın sonrakı inkişafı üçün əlverişli zəminin yaradılmasını təmin edir. Tədricən uşağın anaya anadangəlmə instinktiv bağlılığı ilkin çərçivəsindən kənara çıxır. Bu proses tədricən sosial məzmun kəsb etməyə başlayır. Ana uşağın yaranan yeni tələbatlarının ödənilməsini təmin edən əsas simaya çevrilir. Bu əsasda uşağın fiziki tələbatları ilə yanaşı onun idrakı tələbatlarının ödənilməsi də ona bəslənilən qayğılı münasibətin əsas istiqamətlərindən birinə çevrilir. Psixoemosional münasibətlərin məhdudluğu və ya heç olmaması uşağın anaya olan bağlılığını zəiflədir və bu proses psixoloji gərginliklə müşayiət olunur. Bu zəmində uşaq – ana münasibətlərinin ahəngdarlığı nəzərə çarpacaq dərəcədə pozulur (Həmzəyev, 2003:125).

Psixoloji ədəbiyyatın təhlili əsasında belə bir ümumi qənaətə gəlmək olar ki, motivasiya davranış sistemi kimi formalaşan bağlılıq çağalıq dövrünün sonunda ilkin bünövrə rolunu oynamaqla uşağın sonrakı inkişafı üçün əlverişli psixososial zəminin yaranmasını təmin edir. Artıq körpəlik dövrünə keçidlə əlaqədar tədricən çox mühüm olan psixoloji törəmələr müəyyənləşir və bu zəmində uşağın ətrafdakılarla münasibətlərində yeni tipli əlamətlər təzahür etməyə başlayır. Uşaq başqalarının ona bəslədiyi münasibətə həssaslıqla yanaşır və bu əsasda uşağın özünü qavramasının xarakterində müəyyən dəyişikliklər baş verir. Belə ki, uşaq yaxınları tərəfindən dəstəklənirsə, bu vəziyyət onun ətrafdakılarla bağlılığını genişləndirir. Bunun təsiri altında ətrafdakı insanlar uşaq üçün etibarlı tərəfdaşlara çevrilirlər. Əks vəziyyət yarandıqda ətrafdakılar uşaq üçün təhlükə və narahatlıq mənbəyinə çevrilirlər. Bununla əlaqədar belə bir cəhəti də qeyd etmək lazımdır ki, bağlılığın iki aspekti diqqəti cəlb edir: a) uşaq ətraf aləmi dərk etməyə və bununla əlaqədar müəyyən çətinliklərlə qarşılaşmağa meyl edir; b) uşaq ətrafdakılar tərəfindən müdafiə olunmağa, təhlükəsizliyini təmin etməyə böyük ehtiyac duyur (Qəhrəmanova, 2021:164). Birinci amil uşağı anadan uzaqlaşdırır, ikinci amil isə, əksinə onu anaya

yaxınlaşdırır. Beləliklə, anaya bağlılıqda koqnitiv və kommunikativ proseslərin ümumi bütövlüyü tədricən formalaşmağa başlayır.

Müasir dövrdə erkən yaş mərhələlərinin öyrənilməsi ilə əlaqədar aparılan çoxsaylı tədqiqatların nəticələri göstərir ki, yüksək səviyyədə aparılan çoxsaylı tədqiqatların nəticələri göstərir ki, yüksək səviyyədə reallaşdırılan bağlılıq uşaqlığın bütün illəri ərzində uşağın ümumikoqnitiv və psixoemosional inkişafına əhəmiyyətli dərəcədə təsir göstərir. Uşağın sosial davranışı formalaşır və bu amil onun şəxsiyyətinin ümumi inkişafında əhəmiyyətli mövqeyə malik olmağa başlayır.

Onların spesifik funksiyaları açıqlanaraq xarakterizə edilir. Psixoanalitik nəzəriyyə keçən əsrin əvvəllərində Z.Y.Freyd tərəfindən irəli sürülmüşdür. Freydin ümumi ideyası ondan ibarət idi ki, insana məxsus olan çoxsaylı nevrozların səbəblərini insanın şüurunda və şəxsiyyətinin xüsusiyyətlərində axtarmaq lazımdır. Freydə görə, yaranan problemlərin ilkin təzahürləri erkən uşaqlıq illərinə təsadüf edir. Burada uşaqda yaranan və seksual problemlərlə əlaqədar olan psixoloji zədələr mühüm əhəmiyyətə malikdir. Uşağın məruz qaldığı zədələr çox böyük emosional mütəəssirlik doğurur və onlar dərk olunmadıqlarından şüuralı səviyyəyə keçirilirlər. Sıxışdırılan və dərk olunmayan xatirələr şüuraltı səviyyədə toplanılır. Sonradan dərkolunmayan təəssüratlar müxtəlif tipli nevrozların, arzuolunmaz mütəəssirliyin yaranmasına səbəb olurlar (Rean, 2002: 233). Bütün bu əlverişli olmayan psixoloji vəziyyətlərin aradan qaldırılması xüsusi tipli psixoterapevtik müalicə üsullarının tətbiqi şəraitində reallaşdırıla bilər.

Freydin nəzəriyyəsinin əsasını instinktiv və bioloji tələbatlarla sosial normalar arasındakı mövcud obyektiv konfliktlərin qarşılıqlı əlaqəsi və mübarizəsi təşkil edir. instinktiv tələbatlara (Freydə görə) iki amil aid edilməlidir: a) həyat instinkti (eros), b) ölüm instinkti (tonatos). Şüurlu tələbatlara isə mənəvi, mədəni və əxlaqi təsəvvürlər aid edilirdi. Freyd belə hesab edirdi ki, uşaq anadangəlmə instinktiv tələbatlarla doğulur və davranış prosesində libidosunu və ya “id”ini təmin etməyə nail olmağa çalışır. İlk dövrdə uşaq zərərli olanla əlverişli olanı fərqləndirmir. Əsas motiv instinktiv tələbatların ödənilməsinə yönəlir. Bu cəhət Freydin yanaşmasında “ləzzət prinsipi” adlanır. Lakin sonradan böyüklərin təsiri altında uşaq instinktiv tələbatlarını və arzularını ləngitməyə nail olmağa çalışır. Artıq uşaq öz davranışını ətrafdakıların tələblərinə uyğunlaşdıraraq tənzim etməyə nail olur (6).

Psixi ikişafla bağlı ideyasını əsaslandıran Freyd belə hesab edirdi ki, uşağın inkişaf prosesi onun seksual tələbatlarının ödənilməsinin konkret formalarının həyata keçirilməsi ilə müşayiət olunur. Yaranan psixi enerji bütün inkişaf mərhələlərində həlledici mövqeyə malik olur .

İnsanın inkişafında seksual tələbatların rolunun mütləqləşdirilməsi ilə əlaqədar Z.Freydin irəli sürdüyü ideyalar və bu əsasda formalaşdırdığı nəzəriyyə sonralar ciddi tənqidə məruz qaldı. Bu zəmində Freydin baxışları inkişaf etdirilərək əsaslı dəyişikliklərə uğradıldı. Freydin ardıcılları olan yeni freydistlər (A.Freyd, K.Xorni, A.Adler, E.Erikson və b.) seksual faktorun və onunla bağlı olan ləzzət prinsipinin mərkəzi mövqeyə malik olması mövqeyindən uzaqlaşdılar. Buna istinadən uşağın inkişafında sosial mühitin və təşkil olunaraq həyata keçirilən tərbiyə sisteminin rolu ön plana çəkilirdi (7).

Psixi inkişafın koqnitiv nəzəriyyəsi uşağın psixi inkişafına yeni nöqteyi – nəzərdən yanaşmanın əsasını formalaşdırdı. Koqnitiv psixologiyanın yaradıcısı sayılan J.Piaje belə bir ümumi mövqeyi əsaslandırırdı ki, uşağın idrak sferasının öyrənilməsi uşaq psixologiyasının mərkəzi istiqamətlərindən birinə çevrilməlidir. Piajeyə görə uşaq psixologiyası uşaq təfəkkürünün öyrənilməsinə xüsusi əhəmiyyət verməlidir. Belə ki, ətraf aləmin hadisələrinin qavranılaraq dərk olunması uşağın ümumi inkişafına həlledici təsir göstərir. Piaje belə hesab edirdi ki, uşağın əqli inkişafı ətraf gerçəkliyə adaptasiya prosesinin nəticəsi olaraq reallaşır. Bu zəmində uşaq təfəkkürünün inkişafında müvafiq yaş mərhələlərinə uyğun keyfiyyət dəyişiklikləri baş verir. Piaje uşağın əqli inkişafında üç mühüm mərhələni fərqləndirir. Hər bir mərhələ özünün koqnitiv quruluşunun olması ilə xarakterizə olunur. İnkişaf mərhələləri müəyyən əlamətlərə malik olmaqla uşağın əqli inkişaf prosesinin məzmun xarakteristikasını ifadə edirlər. İlk mərhələni Piaje sensomotor təfəkkür mərhələsi adlandırır. Bu mərhələ uşaq həyatının ilk ilini əhatə edir. İkinci mərhələ öz tərkibində üç mərhələni birləşdirir a) konkret əməliyyatlar mərhələsi ; b) əməliyyatlı təfəkkürəqədər olan mərhələ; c) əməliyyatlı mərhələ. Üçüncü mərhələ formal əməliyyatlar mərhələsi adlanır (5).

Biheviorizm və sosial öyrətmə nəzəriyyəsi klassik psixologiyada psixi inkişafa dair yeni tipli yanaşmanın formalaşmasını şərtləndirmişdir. İnkişafda anadangəlmə instinktlərin rolunu ön plana çəkən klassik nəzəriyyələrdən fərqli olaraq, öyrətmə nəzəriyyəsi insanın inkişafında və onun psixi fəaliyyətinin formalaşmasında sosial mühitin böyük təsir imkanlarına malik olması ideyasına əsaslanır.

Biheviorizmin tədqiqat istiqaməti insanın daxili dünyasının öyrənilməsi məqsədini reallaşdırmır. Bu nəzəriyyə real olaraq müşahidə olunan davranışın öyrənilməsinin daha məqsədəmüvafiq olması ideyasına əsaslanır. Bu istiqamətin tərəfdarları belə hesab edir ki, uşağın inkişafı ilk növbədə öyrətmənin kəmiyyət xarakteristikası ilə əlaqədardır. Başqa sözlə desək, inkişaf prosesində uşaq öyrətmə zəminində çoxsaylı vərdişlərə yiyələnməyə nail olur. Belə tipli öyrətmə, bihevioristlərə görə, keyfiyyət xarakteristikasına malik olan psixoloji törəmələrin mənimsənilməsini nəzərdə tutmur. Fərdi inkişafın bütün mərhələlərində qeyd edilən yanaşma dəyişməz qalır. Beləliklə, sosial öyrətmənin uşağa aşılanmasının əhəmiyyəti daha dəyərli sayılır. Emosiyalar, təsəvvürlər və digər psixoloji törəmələr və onların öyrənilməsi o qədər də vacib sayılmır. Çünki onları bilavasitə görmək və ölçmək mümkün deyildir. Bihevioristlərin mövqeyinə görə, yalnız xaricən müşahidə olunan və qeydiyyatı obyektiv göstəricilər əsasında aparılan fakt və proseslər psixoloji tədqiqatın predmeti kimi xarakterizə oluna bilərlər.

Konvergensiya nəzəriyyəsi görkəmli alman psixoloqu V.Ştern tərəfindən irəli sürülmüşdür. Onun mövqeyinə görə, psixi inkişaf daxili (anadangəlmə) və xarici (sosial) amillərin əlaqəsi zəminində reallaşır. Xarici amil şərait yaradır və buna istinadən anadangəlmə faktorlar ondan istifadə edərək psixi inkişafa təkan verirlər. Bununla əlaqədar olaraq anadangəlmə irsi amillərlə sosial amillərin rolunun nisbətinin müəyyənləşdirilməsinin zərurəti qarşıya çıxır. Əkizlər üzərində apardığı müşahidələrinə və onların təhlilinə əsaslanan V.Ştern belə hesab edirdi ki, eyni sosial mühit şəraitində yaşayan əkizlərin inkişafı bütövlükdə üst – üstə düşməlidir (4). Lakin bu ümumi ideya reallığın dəfələrlə müşahidə olan obyektiv faktlarına uyğun gəlmir. Müxtəlif psixoloqların apardığı uzunmüddətli müqayisəli müşahidələrin nəticələri göstərir ki, eyni ailədə yaşayan monoziqot əkizlərin inkişafında çoxsaylı fərqli əlamətlər mövcud olur. Onlar həyatda müxtəlif psixososial istiqamətə malik olan insanlar kimi inkişaf edərək formalaşırlar. Məhz bu ümumi yanaşmaya istinadən müasir psixologiyada iki faktorun konvergensiyası nəzəriyyəsinə tənqidi münasibət bəslənilir. Təbii ki, müasir elmi psixologiya və onun mühüm sahələrindən olan psixogenetika irsiyyətin və anadangəlmə imkanların rolunu inkar etmir.

## Nəticə

Beləliklə, yuxarıda araşdırılan nəzəriyyələrdə uşağın inkişafı ilə əlaqədar aşağıdakı nəticələrə gəlmək mümkündür.

- Freydə görə seksual tələbatlarla əlaqədar olan enerji şüursuzluq səviyyəsinə keçərək insanın sosial davranışının mexanizmi kimi əsaslı təsir imkanlarına malik olur.
- Bihevioristlərə görə yalnız xaricən müşahidə olunan və qeydiyyatı obyektiv göstəricilər əsasında aparılan fakt və proseslər psixoloji tədqiqatın predmeti kimi xarakterizə oluna bilərlər.
- Konvergensiya nəzəriyyəsinə görə inkişafda sosial amillərin, təlim və tərbiyə mühitinin uşağın inkişafında aparıcı mövqeyə malik olması ilə əlaqədar irəli sürülən ümumi yanaşma birmənalı olaraq təsdiqlənir.

## Ədəbiyyat

1. Bayramov, Ə.S. Əlizadə, Ə.Ə. (2003), Psixologiya. Bakı: Qapp, Poliqraf
2. Həmzəyev, M.Ə. (2003), Yaş və pedaqoji psixologiyanın əsasları. Bakı: Adiloğlu
3. http://web2.anl.az:81/read/page.php?bibid=532187&pno=305
4. https://cyberleninka.ru/article/n/teorii-psihicheskogo-razvitiya-v-sovremennoy-psihologii
5. https://infourok.ru/issledovanie-na-temu-osnovnie-teorii-psihicheskogo-razvitiya-1542181.html
6. Qədirov, Ə.Ə. (2002), Yaş psixologiyası. Bakı: Maarif
7. Qəhrəmanova, Q.N. (2021), Uşaq psixologiyası. Bakı: Optimist
8. Rean, A.A. (2002), Psixologiya çeloveka ot rojdeniya do smerti. M., OLMA – PRESS

**Rəyçi: psixol.ü.e.d. Ərəstun Baxşəliyev**

Göndərildi: 02.05.2022 Qəbul edildi: 04.07.2022

DOI: https://doi.org/10.36719/2789-6919/12/10-14

**Arzu Tofiq qızı İsgəndərzadə**
AMEA Nəsimi adına Dilçilik İnstitutu
dissertant
arzuferecli_isgenderzadeh@gmail.com

# TÜRK DİLLƏRİNDƏ BAĞLAYICILARIN TƏDQİQİ TARİXİNDƏN

**Xülasə**

Nitq hissələrinin düzgün elmi izahı onlardan birini digərindən fərqləndirən əlamətlərin dəqiq müəyyənləşdirilməsi dilin qrammatik quruluşunun öyrənilməsini asanlaşdırır. Köməkçi nitq hissələri həm ümumilikdə nitq hissələrinin içərisinə, həm də dilin qrammatik sisteminin tamamlanmasında mühüm əhəmiyyət daşıyır. Onlar leksik-qrammatik mənadan məhrum, morfoloji cəhətdən dəyişməyən, müstəqil cümlə üzvü vəzifəsində çıxış etməyən vahidləri əhatə edir.Oğuz qrupu türk dillərində köməkçi nitq hissələrinə qoşma və bağlayıcı və ədatlar daxil edilir, qoşmaların tərkibində köməkçi adlar, bağlayıcıların tərkibində bağlayıcı sözlər, ədatların tərkibində isə modal sözlər yarım qrupları fərqləndirilir.

***Açar sözlər:*** *türk dilləri, bağlayıcı, köməkçi nitq hissələri, oğuz qrupu türk dilləri, nitq hissələri*

**Arzu Tofig Isgenderzade**

## On the history of the research of conjunctions in the Turkish languages

**Abstract**

The correct, scientific explanation of the parts of speech, the exact identification of the signs that distinguish one of them from the other, facilitates the study of the grammatical structure of the language. Auxiliary parts of speech are important both within the parts of speech in general and in completing the grammatical system of the language. They include units devoid of lexical-grammatical meaning, morphologically unchanged, and not acting as independent sentence members.In the Oghuz group of Turkic languages, conjunctions and conjunctions and adverbs are includedin the auxiliary parts of speech.

***Keywords:*** *Turkic languages, connectors, auxiliary parts of speech, Turkic languages of the Oghuz group, parts of speech*

## Giriş

Nitq hissələri termini yunan dilindən latın dilinə və oradan rus dilinə kalka edilmişdir. Latın dilində "partes orationis" şəklində işlənən bu terminin qarşılığı bizim dilimizdə rus dilinə əsasən müəyyən edilmişdir. Nitq hissələrinin düzgün elmi izahı onlardan birini digərindən fərqləndirən əlamətlərin dəqiq müəyyənləşdirilməsi dilin qrammatik quruluşunun öyrənilməsini asanlaşdırır.

Sözlərin nitq hissələri şəklində təsnifinə dilçilər fərqli meyarla yanaşmış, eyni zamanda, dilin lüğət tərkibinə daxil olan sözləri müxtəlif şəkildə təsnif etmişlər.

Nitq hissələrinin tarixən necə əmələ gəldiyi də maraqlıdır. Bəzi dilçilərin fikrincə, tarixən ilk sözlər feillərdən ibarət olmuşdur. Məsələn, alman alimi Maks Müller bu fikirdə idi. O, bu fikrə Hind-Avropa dillərində söz köklərinin analizi əsasında gəlmişdir.

N.Y.Marr ilkin söz köklərinin isimlərdən ibarət olduğunu göstərmişdir. Bəzi rus dilçiləri isə (A.A.Potebnya) ilkin söz köklərinin hərəkətdə olan əşyanı bildirdiyini göstərmişdir.

Əflatunun (e.ə 427-348) qeydlərinə görə hələ e.ə 5-ci əsrdə yunan alimləri adlarla feilləri fərqləndirmişlər. Əflatun özü də adlarla feilləri fərqləndirmiş, cümlədə mübtəda vəzifəsində işlənən sözləri adlara, xəbər vəzifəsində işlənənləri feillərə daxil etmişdir.

Aristotel (e.ə 384-322) yunan dilində üç nitq hissəsi – adlar, feillər, bağlamalar (bağlayıcı, artikl, əvəzlik) olduğunu qeyd edirdi. Aristotelin fikrincə, ad zaman anlayışı bildirməyən, feil zaman anlayışı bildirən müstəqil sözlərdir.

Qədim İskəndəriyyə dövrü qrammatikasında (e.ə 3-2 əsrlər) artıq 8 nitq hissəsi müəyyən edilmişdi; ad, feil, feili sifət, artikl, əvəzlik, zərf, qoşma, bağlayıcı.

Nitq hissələri ümumi qrammatik kateqoriyadır. Sözlərin semantik-qrammatik cəhətdən qruplaşması nitq hissələrini yaradır. Türk dillərində nitq hissələrinin fərqləndirilməsi, ümumiyyətlə, onların təsnifini şərtləndirən meyarlara münasibət çox müxtəlif olduğundan hələ də mübahisələr özünə yer tapmaqdadır. Başqa sözlə, türk dillərində nitq hissələri problemi hələ də həll edilməmiş qalır.

Bu dillərdə nitq hissələrinin təsnifində özünü göstərən mübahisələr bir tərəfdən türk dillərində hər bir kateqoriyaya xas morfoloji əlamətlərin (məs:Hind-Avropa dillərində olduğu kimi) çox az olması, eyni bir sözün zahirən həm isim, həm sifət, həm zərf kimi işlənə bilməsini iddia etməyə gətirib çıxarır.

Türk sistemli dillərin əsas nitq hissələri adlar və feillər olmaq etibarilə iki yere ayrılır. Bir qayda olaraq, adlara isim, sifət, say, əvəzlik və zərfləri daxil edirlər. Bununla belə, bəzən (qaraqalpaq, qazax və s.) nida və təqlidi sözləri (mimerlər) də əsas nitq hissələrinin tərkibinə daxil etmək meylləri özünü göstərir.

Bu dillərdə köməkçi nitq hissələrinin tərkibi yekcins deyil. Belə ki, bu kateqoriyanın tərkibinə bəzən üç (qoşma, bağlayıcı və nidalar), bəzən də altı-səkkiz (qoşma, bağlayıcı, ədat, modal söz, köməkçi ad, nida, təqlidi söz və bağlamalar) söz qrupu daxil edilir.

**Türkologiyada köməkçi nitq hissələrinin tədqiqi tarixi**

Köməkçi nitq hissələri həm ümumilikdə nitq hissələrinin içərisinə, həm də dilin qrammatik sisteminin tamamlanmasında mühüm əhəmiyyət daşıyır. Onlar leksik-qrammatik mənadan məhrum, morfoloji cəhətdən dəyişməyən, müstəqil cümlə üzvü vəzifəsində çıxış etməyən vahidləri əhatə edir. Köməkçi nitq hissələri dildə yardımçı funksiya daşısa da, dilin ifadə imkanlarının, normativliyinin təmin olunmasında rolu çoxdur (Təhməsov, 2017:7). "Bütün dillərdə olduğu kimi Azərbaycan dilində də köməkçi nitq hissələri tarixən müstəqil mənalı sözlər olmuş, dilin keçdiyi tarixi inkişaf mərhələlərində öz müstəqilliklərini ya qismən, ya da tamamilə itirərək köməkçi vəzifə kəsb etmişdir" (Abdullayev, 1958:49).

Türk dillərində köməkçi nitq hissələrinin tədqiqi tarixi M.Kaşğariyə qədər gedib çixsa da, bu problemin elmi səviyyədə qoyuluşu 18-ci əsrin ikinci yarısına təsadüf edir. F.Zeynalov bu dövrdə yaşayıb-yaradan türkloloqlardan P.Holdermanla İ.Qiqanovun adlarını qeyd edərək göstərir ki, hər iki müəllif türk dillərində nitq hissələrinin bölgüsündən danışarkən onları əsas və köməkçi qruplara ayırmış və köməkçi nitq hissələrinə qoşma, bağlayıcı, zərf və nidaları daxil etmişlər. Eyni zamanda, onlar dildəki bütün köməkçi vasitələri- leksik və qrammatik şəkilçiləri, köməkçi feilləri və bir sıra ünsürləri də köməkçi nitq hissələri kimi xarakterizə etmişlər (Zeynalov, 1957:63).

XIX əsrdə türk dillərinin həm qədim yazılı abidələrinin öyrənilməsində, həm qrammatik qruluşunun tətbiq olunmasında P.M.Melioranskinin böyük xidmətləri olmuşdur. O, qazax və qırğız dillərinin müqayisəli qrammatikasına aid yazdığı iki cildlik kitabının birinci cildində köməkçi nitq hissələrinə qoşma, bağlayıcı, ədat və zərfləri daxil edir. P.M.Melioranski ilk dəfə olaraq türk dillərində köməkçi nitq hissəsi olaraq ədatları da götürür. O həmin əsərində ədatı "hissəcik-şəkilçi" kimi götürdüyündən onlara ayrı-ayrı şəkilçiləri də daxil etmişdir (Meliorenskiy, 1980:367).

M.Kazım bəy türk dillərində köməkçi nitq hissələrinə qoşma, bağlayıcı və nidaları daxil edir. Ancaq qoşmaların və bağlayıcıların tərkibinə nəzər saldiqda görürük ki, müəllif bir sıra şəkilçiləri, ədatları və bəzi modal sözləri də onların tərkibində vermişdir. O, Köməkçi nitq hissələri haqqında yığcam məlumat versə də, onun bu nitq hissələrinə yanaşma tərzi orjinallığı ilə diqqəti cəlb edir. Müəllif dildəki köməkçi vasitələri köməkçi nitq hissələrindən fərqləndirir, türk dillərində ilk dəfə olaraq mürəkkəb quruluşlu bağlayıcıları haqlı olaraq "tərkibi bağlayıcılar adlandırır" (Mirzə Kazım, 1846:457).

Qordlevski türk dillərində köməkçi nitq hissələri məsələsində özünə qədər qeyd olunmayan cəhətlərə toxunmuşdur. O, köməkçi nitq hissələrinə qoşma, bağlayıcı, zərf və nidaları daxil edir və bu vasitələri sintaksisisdə öyrənməyi daha düzgün sayır. Qordlevski, türkologiyada ilk dəfə olaraq köməkçi adları qoşmalardan fərqləndirərək onları "ad-qoşma" kimi qruplaşdırır (Qordlevski, 1928:386).

"Müasir Azərbaycan dilinin morfologiyası" adlı əsərdə köməkçi nitq hissələri qrammatik məna, forma və sintaktik vəzifələrinə görə müəyyənləşdirilmiş, onlar üç qrupda birləşdirilmişdir: qoşma, bağlayıcı və ədatlar (14). Burada da bağlayıcıların tərkibində modal sözlərə (sanki və s.), nidaların da içərisində ədatlara (a, ə) rast gəlmək olur.

Türkologiyada “köməkçi adlar” terminini ilk dəfə N.K.Dmitriyev işlətmişdir. O, türk dilində köməkçi adlar məsələsinə ayrıca əsər həsr edərək, onların qrammatik mənalarından ətraflı danışmış və həmin vahidləri “müstəqil sözlərlə qoşmalar arasında aralıq vəziyyətində olan bir kateqoriya” adlandırmışdır. Dmitriyev köməkçi adları qoşmaların tərkibində öyrənməyi məsləhət görür (Dmitriyev, 1961:157-158). O, başqırd dilində nitq hissələrini dəyişən və dəyişə bilməyən olmaqla iki qrupa ayırır və dəyişə bilməyənlərə köməkçi nitq hissələrini aid edir. Köməkçi nitq hissələrinə qoşma, bağlayıcı, ədat və modal sözləri, eyni zamanda zərfləri daxil edir.

N.A.Baskakov köməkçi nitq hissələrinə qoşma, bağlayıcı və ədatları daxil edir (Baskakov, 1952:542). O, modal sözləri bəzən bağlayıcıların tərkibində vermiş, bəzən modal sözlərə daxil olmayan idi, imiş, isə, ikən vahidlərini də modal sözlər kimi götürmüşdür.

A.N.Kononov türk dillərində köməkçi nitq hissələrinə qoşma, bağlayıcı və ədatları daxil edir. Müəllif modal sözləri ədatların bir qrupu hesab etdiyindən onları ayrıca bir qrup kimi vermir (Kononov, 1956:569).

L.A.Pokrovskaya türk dillərində ilk dəfə olaraq modal sözləri ayrıca bir nitq hissəsi kimi göstərmişdir. O, qaqauz dilində köməkçi nitq hissələrinə qoşma, bağlayıcı, ədat, modal sözləri daxil etmişdir (Pokrovskaya, 1964:298) Müəllif müasir qaqauz dilində bağlayıcı sözlər haqqında geniş söhbət açmasa da, kim, nə, necə, hara və s. Sözlərinin bağlayıcılıq xüsusiyyətinin olmasını vurğulamışdır.

“Qrammatika türkmenskoqo yazıka” kitabında türkmən dilindəki nitq hissələri üç qrupa ayrılmışdır: “adlar, fellər, köməkçi nitq hissələri”. Köməkçi nitq hissələrinə isə qoşma, bağlayıcı, köməkçi adlar, ədat, modal sözlər, nida və təqlidi sözlər aid edilmişdir (Muxtarov, 1971:311).

Tahsin Banquoğlunun “Türkiye Türkçesinin grameri” adlı kitabında köməkçi nitq hissələrinin sərhəddinin dəqiq müəyyən olunmamasına və dolayısıyla da onların bir-birinə qarışması hallarına rast gəlirik. Lakin özündən əvvəlki türk müəlliflərə nisbətən köməkçi nitq hissələrini əsas nitq hissələrindən fərqləndirən xüsusiyyətləri göstərmidir. Müasir türk dilində köməkçi nitq hissələrinə takı, bağlama, ünlem, taklidi sözlər daxil etmişdir (Banquoğlu, 1986:628). Bu qramatika kitabında ədat və modal sözlərdən danışılmır, hər hansı bir ədat və ya modal sözə digər nitq hissələri içərisində rast gəlmirik.

A.M.Şerbak türk dillərində nitq hissələrindən müqayisəli-tarixi aspektdə söhbət açaraq onlara qoşma, bağlayıcı və ədatları daxil edir və əsasən onların etimalogiyasını araşdırır (Şerbak,1987:167).

Bir qrup dilçilər köməkçi nitq hissələrini köməkçi vahidlərdən fərqləndirmir, digər bir qrup isə onları “hissəciklər” adı altinda birləşdirir. Bəziləri buraya zərf, nida və təqlidi sözləri əlavə edib, ədat və modal sözləri daxil etmirlər. Elə dilçilər də vardır ki, köməkçi nitq hissələri qoşma, bağlayıcı, ədatı daxil edib nidalardan xüsusi nitq hissəsi kimi bəhs edirlər, modal sözləri isə ədatların tərkibində verməyi uyğun görürlər.

Muharrem Ergin “Türk dil bilgisi” kitabında yazır ki: “Köməkçi nitq hissələri (qoşma, nida, bağlayıcı) leksik mənaları olmayan, ancaq qrammatik vəzifə ifadə edən sözlədən ibarətdir (Ergin, 1958:313).

Azərbaycan dilindəki köməkçi nitq hissələrini “ədat” və ya “hissəcik” adı altında verib, onlara zərfi və bir sıra qrammatik kateqoriya şəkilçilərini də daxil etmək hallarına 20ci əsrin 30cu illərinin sonuna qədər yazılmış dərslik və qrammatikalarda tez-tez təsadüf olunur. Bu meyl, Azərbaycan mədəniyyəti, elmi tarixində özünəməxsus yeri olan prof.B.Çobanzadənin “Türk qrameri” adlı əsərində də özünü göstərir. Müəllif həmin kitabında Azərbaycan dilindəki köməkçi nitq hissələrinə zərf, qoşma, bağlama və nidaları daxil edir. Əsərdə ədat və modal sözlərdən bəhs olunmur və onların bir neçəsi (gərək, təbii, əlqissə və s.) bağlayıcıların, eləcə də zərflərin tərkibində göstərilir (Çobanzadə, Ağazadə, 1929:202).

Hələ milli dilçiliyimizin tam formalaşmadığı ilk dövrlərdə Azərbaycan dilində köməkçi nitq hissələrini digər köməkçi vasitələrlə eyni qrupda verirdilər. Onlara əksər kateqoriyaların şəkilçilərini, eyni zamanda leksik şəkilçiləri, qoşma, bağlayıcı, nidaları daxil edirdilər. Bu müəlliflərdən birin də X.M.M.Əfşardır. O, “Fənni-sərfi-türki” adlı qeyri-mətbu əsərində köməkçi nitq hissələrini “ədat” adı altında verir.

Azərbaycan dilçiliyində 30-cu illərin əvvəllərində nəşr olunan qrammatikalarda yenə də köməkçi nitq hissələri kimi qoşma, bağlayıcı, nidalar götürülür, ədat,modal sözlərdən isə bəhs olunmurdu. Bəzi ədat və modal sözlər isə zərf və bağlayıcıların tərkibində izah olunurdu.

Ə.Dəmirçizadə ilə D.Quliyev 1938ci ildə sözlərin leksik mənasına görə nitq hissələrini təsnif edir, onları müstəqil və köməkçi olmaqla iki qrupa bölürlər. Müəlliflər köməkçi nitq hissələrini qoşma və bağlayıcılarla məhdudlaşdırır, ədat və modal sözləri isə zərf və bağlayıcıların tərkibində verirdilər (Dəmirçizadə,1978:306).

Müasir Azərbaycan dilinin qrammatikasına həsr olunmuş 40cı illərdə nəşr olunan kitablarda da nidalar köməkçi nitq hissəsi kimi verilir.

C.Əfəndiyevin 1947ci ildə "Tədqiqlər" toplusunda çap olunmuş "Qoşma" və "Bağlayıcı" məqalələrində köməkçi nitq hissələri geniş tədqiq olunmuşdur. "Bağlayıcı" məqaləsində bəlkə, bəlkə də, ehtimal, ehtimal ki, ola bilər, ola bilsin ki, görünür, görünür ki, deyəsən, beləliklə, demək, demək ki, deməli, bir sözlə, xülasə, əlqissə və s. Modal sözlər mürəkkəb bağlayıcılar olaraq göstərilmiş və bağlayıcı sözlər bağlayıcılardan fərqləndirilməmişdir. Burada bağlayıcıların əsasən semantikasına xüsusi yer verilmişdir.

1951ci ildə nəşr olunan "Azərbaycan dilinin qrammatikası" kitabında köməkçi nitq hissələrinə qoşma və bağlayıcılar daxil edilir və nə köməkçi adlar qoşmalardan, nə də bağlayıcı sözlər bağlayıcılardan fərqləndirilir. Burada da ədat və modal sözlərin əksəriyyəti bağlayıcıların və zərflərin içində götürülür (ADQ,1951:267).

Fərhad Zeynalov Oğuz qrupu türk dillərində köməkçi nitq hissələrinə qoşma və bağlayıcı və ədatları daxil edir, qoşmaların tərkibində köməkçi adlar, bağlayıcıların tərkibində bağlayıcı sözlər, ədatların tərkibində isə modal sözlər yarım qruplarını fərqləndirir. O, "Müasir türk dillərində köməkçi nitq hissələri" kitabında yazır: "Bağlayıcılar real məzmunlu sözlərin əks etdirdikləri münasibətləri bağlamaqla müəyyən, hər bir bağlayıcının öz xüsusiyyəti ilə bağlı münasibətlər yaradır. Məlum məsələdir ki, bağlayıcılar bir-birindən fərqlənirlər. Məhz bu fərqlənmə, yaratdıqları münasibətlərin məzmunu bağlayıcıların leksik mənası hesab edilməlidir. Onlardakı qrammatik məna həmin münasibətlərin sintaktik ifadəsi vaxtı meydana çıxır. Bir bağlayıcının digərinin yerində çıxış edə bilməməsi və eləcə də bu və ya digər bağlayıcını dəyişdikdə bunun məna dəyişikliyinə aparıb çıxarması bağlayıcılarda da müəyyən məna çalarlığının varlığına dəlalət edir. Məlum olduğu kimi, bağlayıcı vəzifəsini digər nitq hissələri də ifadə edir. Bu tipli sözlərdə, eləcə də söz birləşmələrində mövcud olan, asanlıqla ayrılan, nəzərə çarpan mənanı bağlayıcıların mənası ilə uyğunlaşdırmaq olmaz. Çünki bunlar bağlayıcı deyil, onların sintaktik vəzifəsini ifadə edən ünsürlərdir. Məsələn: deyə, onun üçün, buna görə, bundan dolayı, bunun üzərinə və s." (Zeynalov. 1968:53).

Müəllif eyni zamanda müasir Türk və Azərbaycan dilində tabeli mürəkkəb cümlənin tərəflərini bağlayan vasitələr içində bağlayıcı sözlərində əhəmiyyətli rol oynadığını yazaraq onları iki qrupa ayırır. " Birinci qrupa əvəzlik və qoşmalardan (bu qrupun sonuna xalis bağlayıcılar və eləcə də ədatlar da əlavə oluna bilər) ibarət bağlayıcı vəzifəsi ifa edən birləşmələri daxil etmək lazımdır. Ikinci qrupa isə nisbi əvəzliklərin bağlayıcı vəzifə ifa edənlərini daxil etmək və (nisbi) bağlayıcı sözlər kimi səciyyələndirmək düzgün olar"

H.Mirzəzadə köməkçi nitq hissələrini tarixi aspektdə araşdıraraq, onların Azərbaycan dilində qoşma, bağlayıcı və ədatlardan ibarət olduğunu göstərmişdir. Ancaq müəllif çox zaman bağlayıcılarla ədatları, ədatlarla da modal sözləri qarışdırmışdır (Mirzəzadə,1959:78).

959-cu ildə Azərbaycan SSR EA-nın Nizami adına Ədəbiyyat və Dil İnstitutunun buraxdığı "Azərbaycan dilinin qrammatikası" kitabında Azərbaycan dilçiliyində ilk dəfə bağlayıcı vasitələrin içərisində "bağlayıcı sözlər" fərqləndirilir (ADQ,1959: 403).

1960ci ildə işıq üzü görən "Azərbaycan dilinin qrammatikası" kitabında nitq hissələri leksik-qrammatik əlamətlər zəminində əsas və köməkçi olmaqla iki hissəyə ayrılır. Köməkçi nitq hissələrinə qoşma, bağlayıcı, ədat, bağlama və modal sözlər daxil edilir.

Burada bağlayıcı sözlər bağlayıcılardan fərqləndirilmir, mürəkkəb bağlayıcıların tərkibində izah olunur. Əgər, hərçənd, hərgah, hər nə qədər, həmçinin, madam ki, indi ki və s. bağlayıcı sözlər bağlayıcı kimi verilmişdir.

Ə.Abdullayev 1964-cü ildə nəşr olunan monoqrafiyasında bağlayıcı sözlərə öz münasibətini bildirərək yazır: "Bağlayıcılar köməkçi sözlər qrupuna daxil olduğu halda, bağlayıcı sözlər müstəqil sözlərdən hesab olunur" (Abdullayev, 1958:43).

**Nəticə**

Köməkçi nitq hissələrinin tədqiqi tarixinə nəzər saldıqda görürük ki, istər türkologiyada, istərsə də Azərbaycan dilçiliyində köməkçi nitq hissələri uzun illər "hissəciklər" adı altında öyrənilmişdir. Heç şübhəsiz, həmin nitq hissələrinə bu cür yanaşma rus dilçiliyinin təsiri nəticəsində əmələ gəlmişdir.

**Ədəbiyyat**

1. Abdullayev, Ə.Z. (1958), Köməkçi nitq hissələri, Bakı:Maarif.
2. Azərbaycan dilinin qrammatikası, (1951), 1ci hissə, Bakı, Azərb. SSR:EA nəşriyyatı.
3. Banquoğlu, T. (1986), "Türkiye Türkçesinin qrameri". Ankara.
4. Baskakov, N.A. (1952), Qaraqalpaq dili. Bölmə 2., M: İzdvo AN SSR.
5. Çobanzadə, B., Ağazadə, F. (1929), Türk qrameri. Bakı:Nurlan.
6. Dmitriyev, N.K. (1937), Türk dilində xidmət adları. Zhur. «Sovet dilçiliyi», 3 Cilddə.
7. Fərhad, Z.(1968), Müasir türk dillərində köməkçi nitq hissələri, Bakı:Maairf.
8. Kazımbəy, M.A. (1846), Türk-tatar dilinin ümumi qrammatikası. SPB.
9. Kononov, A.N. (1956), Müasir türk ədəbi dilinin qrammatikası. Moskva: L.
10. Qordlevski, V.A. (1928), Türk qrammatikası. M: İzdvo AN SSR.
11. Melioranski, P.M. (1804), Kazak-qırğız dilinin qrammatikası, Orenburq
12. Mirzəzadə, H.İ. (1959), Azərbaycan dilinin tarixi qrammatikası (köməkçi nitq hissələri), Bakı:Elm və Təhsil.
13. Muharrem, E. (1958), Türk dil bilgisi. II, İstanbul.
14. Müasir Azərbaycan dilinin morfologiyası, (1961), Bakı:Elm və Təhsil.
15. Pokrovskaya, L.A. (1964), "Qaqauz dilinin qrammatikası". M., 1964, 298s.
16. Təhməsov, Z. (2017), Müasir Azərbaycan dilində köməkçi nitq hissələrinin təsnifi, Bakı:Elm və Təhsil.
17. Zeynalov, F.R. (1957), Türk dillərində nitq hissələrinin ənənəvi bölgüsü, Bakı:Elm və Təhsil.
18. Muxtarov, D. (1971), Qrammatika turkmenskoqo yazıka, Aşqabat, 495 s.

**Rəyçi: fil.ü.f.d. Qətibə Quliyeva**

Göndərildi: 02.05.2022 Qəbul edildi: 04.07. 2022

DOI: https://doi.org/10.36719/2789-6919/12/15-18

**Şəhriyar Rəhman oğlu Cəfərzadə**
Bakı Dövlət Universiteti
doktorant
shahriyarjafari11@gmail.com

# İNZİBATİ HÜQUQİ AKTLARIN QƏBUL EDİLMƏSİNİN NƏZƏRİ ASPEKTLƏRİ

**Xülasə**

Gündəlik fəaliyyətində səlahiyyətli şəxslər tərəfindən bir sıra normativ aktlar qəbul edilərək tətbiq edilir ki, bu aktların içərisində ən geniş yayılmış formanı inzibati hüquqi aktlar tutur. Azərbaycan milli hüquq sistemində inzibati hüquqi aktlara olan hazırki yanaşma yeni yanaşma tərzi hesab olunmasına baxmayaraq, geniş mənada inzibati hüquqi aktlar hər zaman milli hüquq sistemində aparıcı yeri tutmuşdur. Hazırki məqalə qısa şəkildə Azərbaycan Respublikasında inzibati hüquqi aktların hansı hüquq sistemi əsasında formalaşmasını, inzibati hüquqi aktların qəbulunda hansı dövlətlərin hüquq sisteminin xüsusiyyətlərini əsas götürdüyünü, eləcə də inzibati hüquqi aktların qəbul və tətbiqi prosesində hansı nəzəri aspektlərin olmasını araşdırır. İnzibati hüquqi aktlar gündəlik fəaliyyətimizin ən müxtəlif sahələrini əhatə etdiyindən bu hüquq sahəsinin ətraflı şəkildə mənimsənliməsində fayda vardır. Eyni zamanda qeyd etmək lazımdır ki, inzibati aktlar dedikdə hansı hüquqi aktların nəzərdə tutulması baxımından da vahid mövqe yoxdur. Bu baxımdan inzibati aktların qeyd olunan istiqamət üzrə müqayisəli təhlilidə məqalədə nəzərdə tutulmuşdur.

***Açar sözlər:*** *inzibati hüquqi akt, inzibati hüquq, inzibati hüquqi aktların nəzəri aspektləri, inzibati aktların tətbiqi, inzibati aktlar və qanunvericilik sistemi*

**Shahriyar Rahman Jafarzade**

## Theoretical aspects of administrative law

**Abstract**

A number of normative acts are accepted and applied by the authorized persons in their daily activities, and among these acts, administrative legal acts take the most widespread form. Despite the fact that the current approach to administrative legal acts in the national legal system of Azerbaijan is considered a new approach, administrative legal acts in a broad sense have always occupied a leading place in the national legal system. The current article briefly examines the legal system on which administrative legal acts are formed in the Republic of Azerbaijan, the features of the legal system of which states are used in the adoption of administrative legal acts, as well as what theoretical aspects exist in the process of adoption and application of administrative legal acts. Since administrative legal acts cover the most diverse areas of our daily activities, it is useful to master this area of law in detail. At the same time, it should be noted that there is no unified position in terms of which legal acts are meant by administrative acts. In this regard, the comparative analysis of administrative acts in the mentioned direction is provided in the article.

***Keywords:*** *administrative legal act, administrative law, theoretical aspects of administrative legal acts, application of administrative acts, administrative acts and legislative system*

## Giriş

"İnzibati İcraat haqqında" Azərbaycan Respublikası Qanununa əsasən inzibati akt dedikdə inzibati orqan tərəfindən ümumi (publik) hüquq sahəsinə aid olan müəyyən (konkret) məsələni nizama salmaq və ya həll etmək məqsədilə qəbul edilmiş və ünvanlandığı hüquqi və ya fiziki şəxs (şəxslər) üçün müəyyən hüquqi nəticələr yaradan qərar, sərəncam və ya digər növ hakimiyyət tədbirləri başa düşülür (1). Qeyd etmək lazımdır ki, Azərbaycan Respublikası hüquq sisteminə nəzər saldıqda inzibati hüquqi akt dedikdə fərdi qaydada, yəni konkret məsələnin həlli ilə bağlı qəbul edilmiş aktlar nəzərdə tutulur. Belə ki, Dünyada mövcud olan hüquq sistemlərini təhlil etdiyimizdə inzibati akt dedikdə əsasən iki

kateqoriya aktlar nəzərdə tutulur. Nəzəri olaraq biz bunu inzibati aktların geniş və dar mənada işlənməsi formasını da adlandıra bilərik. İnzibati aktın qanunvericilik sistemində geniş mənada işlənməsi dedikə təkcə fərdi qaydada inzibati aktlar yox, normativ aktlar da nəzərdə tutulur. İnzibati aktlara qeyd olunan formada yanaşma fransız və ingilis hüquq sistemi üçün daha çox xarakterikdir. İnzibati aktların dar mənada işlənməsi dedikdə isə fərdi inzibati aktlar başa düşülür. İnzibati aktların qeyd olunan formada işlənməsi isə əsasən alman hüquq sisteminə xarakterikdir.

**Azərbaycan Respublikası qanunvericilik sistemində inzibati aktların yeri və onun xüsusiyyətləri**

Məlumdur ki, "İnzibati icraat haqqında" Azərbaycan Respublikası Qanunu alman hüquq sistemi əsasında hazırlandığı üçün milli qanunvericilik sistemimiz yuxarıda qeyd edildiyi kimi inzibati aktı fərdi inzibati aktlar kimi xarakterizə edir. Belə ki, qeyd olunan qanunda inzibati aktlara verilmiş anlayışda bu aktların konkret şəxslər dairəsi üçün nəzərdə tutulması və konkret məsələnin həllinə yönəlməsi əsas götürülmüşdür. Mövzudan bir qədər kənara çıxaraq qeyd edə bilərik ki, inzibati aktlara verilmiş anlayışı uğurlu hesab etmək mümkündür. Belə ki, Moskva Dövlət Hüquq İnstitutunun akademikləri tərəfindən hazırlanmış inzibati hüquqa dair əsərdə inzibati hüquqi akta inzibati fəaliyyətinin gerçəkləşdirilməsi istiqamətində, inzibati hüquq normasını və ya inzibati hüquq münasibətini yaratmağa, dəyişdirməyə və ya xitam etməyə yönəlmiş icra hakimiyyəti orqanlarının və ya bələdiyyələrin (yəni inzibati orqanların) qanuna əsaslanan birtərəfli hüquqi-əmredici iradə ifadəsi anlayışı verilmişdir (Belskiy, Kozlov, Kolibaba, Petrov, Popov, 1999 : 269).

Qanunvericilik funksiyası qanunvericilik aktları ilə, məhkəmə funksiyası məhkəmə qərarları/aktları ilə yerinə yetirildiyi kimi, idarəetmə fəaliyyəti da inzibati aktlarla icra edilir. İnzibati aktlar da, başqa hakimiyyət orqanlarının aktları kimi, üstün səlahiyyət və imtiyazlardan istifadə olunaraq icra edilir. İİHQ inzibati aktları, "inzibati orqanların...hakimiyyət tədbiri" adlandırır (Mehdiyev, 2010 : 184).

Bununla belə qeyd etmək yerinə düşər ki, Azərbaycanda hakim olan inzibati hüquqi aktlara dair nəzəri araşdırmalarda inzibati hüquqi aktlar institutuna həmin inzibati normativ aktlar, həm də fərdi qaydada qəbul edilmiş inzibati aktlar daxildir. İnzibati normativ aktın və eləcə də fərdi inzibati aktların tənzimədiyi münasibətlərin bir-birinə yaxın olması eləcə də qeyd olunan iki hüquqi aktın arasında fərqin müəyyənləşdirilməsi üçün hesab edirik ki, inzibati normativ akt və fərdi inzibati aktlar birlikdə təhlil olunmalı və araşdırılmalıdır.

İnzibati aktın nəzəri cəhətlərini daha yaxşı müəyyənləşdirmək üçün əvvəlcə inzibati aktların Azərbaycan qanunvericilik sistemində olan yerini müəyyənləşdirmək daha məqsədəmüvafiqdir. Yuxarıda inzibati akt dedikdə Azərbaycan qanunvericilik sistemində nəyin nəzərdə tutulduğu qeyd olundu. Qeyd olunan anlayışa baxdığımızda inzibati aktlar üçün xarakterik olan bir sıra xüsusiyyətlə müəyyənləşdirmək olur. Belə ki, verilən anlayışdan yola çıxaraq qeyd edə bilərik ki, inzibati aktlar inzibati orqanlar tərəfindən qəbul edilir, ümumi hüquq sahəsinə aid məsələləri tənzimləyir, inzibati aktların tənzimlədiyi məsələlər konkret məsələlərdir, bu aktlar ünvanlandığı şəxslər üçün müəyyən hüquqi nəticələr əmələ gətirir və sonda inzibati aktlar qərar, sərəncam və digər formalarda ola bilir. Qanunda qeyd olunan anlayışda inzibati aktların subyekti qismində inzibati orqanlar göstərilmişdir. İnzibati aktların subyekt dairəsini müəyyənləşdirmək üçün "Normativ Hüquqi aktlar haqqında" Azərbaycan Respublikası Qanununa istinad etməkdə fayda var. Belə ki, qeyd olunan qanunun 3.1-ci maddəsində qeyri normativ hüquqi aktlara verilmiş anlayışa fikir verək. Həmin qanunda qeyd olunur ki, konkret (birdəfəlik) təşkilati, nəzarət və ya sərəncamverici tədbirlərin həyata keçirilməsi məqsədi ilə qəbul edilən və ya digər birdəfəlik tətbiq halları üçün nəzərdə tutulan hüquqi aktlar qeyri-normativ hüquqi aktlar sayılır. Qeyri-normativ hüquqi aktlar müvafiq normativ hüquqi akt əsasında qəbul edilməlidir və onun müvafiq normasına istinad etməlidir (2). Qeyd olunan hər iki anlayışdan bu nəticəyə gələ bilərik ki, inzibati aktlar milli hüquq sistemində qeyri normativ aktlar hesab olunur. İnzibati aktı qəbul edən inzibati orqanlar AR Prezidenti, Nazirlər Kabineti, mərkəzi və yerli icra hakimiyyəti orqanları, həmin orqanların yerli qurumları və bələdiyyələr başa düşülür. İcra hakimiyyətinin əsas qolu kimi AR Prezidenti və Nazirlər Kabineti inzibati aktları daha çox sərəncam formasında olur.

İnzibati aktlar üçün daha bir xarakterik cəhət onların ümumi (publik) hüquq sahəsində olan münasibətləri tənzimləməsidir. Azərbaycan Respublikası Mülki Məcəlləsinin 2.5-ci maddəsinin şərh edilməsinə dair Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun 24 aprel 2019-cu il

tarixli Plenum qərarında qeyd edilmişdir ki, publik hüquqi münasibətlər bir tərəfin digər tərəfin hakimiyyəti tabeliyində olmasına əsaslanır. Bu münasibətlər ümumi maraqlar naminə və dövlətin adından fəaliyyət göstərən bir tərəfin – publik orqanın hakimiyyət səlahiyyətlərinə malik olmasına, digər tərəfin – fərdin (fiziki və hüquqi şəxslərin) isə tabeçiliyinə əsaslanmaqla tərəflərin subordinasiyasını nəzərdə tutur. Bu baxımdan qeyd edə bilərik ki, publik orqanın tələbləri və şəxslərin vəzifələri müqavilədən deyil, qanundan irəli gəlir (5).

Qeyd etmək lazımdır ki, inzibati aktlar inzibati orqanların fəaliyatində rast gəlinən ən çox istifadə olunan aktlardır. İnzibati orqanlar gündəlik fəaliyyətində dəfələrlə inzibati aktlar qəbul edirlər. Bu baxımdan inzibati aktlar təkcə yazılı qaydada deyil, şifahi qaydada da qəbul oluna bilər. İnzibati aktların qəbul edilməsi və tətbiq edilməsi qədər daha bir əhəmiyyətli məsələ vardır ki, bu da inzibati aktların qəbulu və eləcə də onların tətbiqində hakimiyyətin üç qolundan biri olan məhkəmə nəzarətinin olmasıdır. "İnzibati icraat haqqında" Azərbaycan Respublikası Qanunundan məlum olur ki, qanunsuz inzibati akt həmin aktı qəbul etmiş inzibati orqan və ya subordinasiya baxımından yuxarı inzibati orqan tərəfindən və yaxud məhkəmə qaydasında ləğv oluna bilər. Bu eyni zamanda barəsində inzibati akt qəbul edilmiş maraqlı şəxsin inzibati aktı məhkəmədə mübahisələndirmə hüququ olması deməkdir. Belə ki, Azərbaycan Respublikası İnzibati prosessual Məcəlləsinin 2-ci maddəsi inzibati mübahisələrin məhkəmə aidiyyatını müəyyən edir. Qeyd olunan qanunvericilik normasına əsasən şəxsin hüquq və vəzifələri ilə bağlı inzibati orqan tərəfindən qəbul edilmiş inzibati aktın mübahisələndirilməsinə (ləğv olunmasına və ya dəyişdirilməsinə) dair iddialara (mübahisələndirmə haqqında iddia), inzibati orqanın üzərinə inzibati aktın qəbul edilməsi ilə bağlı müvafiq öhdəliyin qoyulmasına dair iddialara və ya inzibati orqanın hərəkətsizliyindən müdafiəyə dair iddialara (məcburetmə haqqında iddia), inzibati orqan tərəfindən inzibati aktın qəbul edilməsi ilə əlaqədar olmayan müəyyən hərəkətlərin edilməsinə dair iddialara (öhdəliyin icrası haqqında iddia), inzibati orqanın inzibati aktın qəbul edilməsi ilə əlaqədar olmayan və bilavasitə şəxsin hüquq və azadlıqlarını pozan qanunsuz müdaxiləsindən müdafiəyə dair iddialara (müəyyən hərəkətləri etməkdən çəkinməyə dair iddia), inzibati hüquq münasibətinin mövcud olmasına və ya olmamasına, habelə inzibati aktın etibarsız sayılmasına dair iddialara (müəyyən etmə və ya tanınma haqqında iddia), Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinin səlahiyyətlərinə aid olan məsələlər istisna olmaqla, normativ xarakterli aktların qanunauyğunluğunun yoxlanılmasına dair iddialara (qanunauyğunluq haqqında iddia), inzibati mübahisələrin həlli ilə bağlı əmlak tələbinə, habelə inzibati orqanların qanunsuz qərarları (inzibati aktları) və ya hərəkətləri (hərəkətsizliyi) nəticəsində vurulmuş ziyana görə kompensasiyanın ödənilməsi tələbinə dair iddialara, bələdiyyələrin inzibati nəzarət orqanlarının hərəkətlərinə qarşı və ya inzibati nəzarət orqanlarının bələdiyyələrə qarşı iddialarına, "Banklar haqqında" Azərbaycan Respublikasının Qanununa müvafiq olaraq bankın sağlamlaşdırılması, rezolyusiyası çərçivəsində verdiyi, bankın məcburi ləğvi və ləğvedicinin təyin edilməsi, bankın iflas proseduruna başlanması, bankın kapitalında mühüm iştirak payı olan şəxsin payının özgəninkiləşdirilməsi və ya bank tərəfindən geri alınması və digər nəzarət tədbirləri ilə bağlı maliyyə bazarlarına nəzarət orqanının ərizələrinə inzibati məhkəmə icraatı qaydasında baxılmaqdadır (3). Sadalanan hüquq normalarına əsasən qeyd edə bilərik ki, inzibati aktlar birinci instnasiya məhkəməsi kimi inzibati məhkəmələrdə mübahisələndirilə bilər. Bununla belə Azərbaycan Respublikası Prezidentinin və eləcə də Nazirlər Kabinetinin inzibati aktlarının məhkəmədə mübahisələndirilməsi mexanizmi mövcud deyildir. Belə ki, qeyd olunan inzibati hüquq subyektlərinin inzibati aktlarının məhkəmədə mübahislələndirilməsi həm de-fakto həm də, de-yure mövcud deyil. Bununla bağlı milli qanunvericilik sistemində şikayətin verilməsi mexanizmləri nəzərdə tutulmamışdır. Bu baxımdan hesab edirəm ki, boşluğun aradan qaldırılması inzibati hüquqi nöqteyi nəzərdən vacibdir. Belə ki, Azərbaycan Respublikası Konstitusiyasının 60-cı maddəsində qeyd olunmuşdur ki, hər kəs dövlət orqanlarının, siyasi partiyaların, hüquqi şəxslərin, bələdiyyələrin və vəzifəli şəxslərin hərəkətlərindən və hərəkətsizliyindən inzibati qaydada və məhkəməyə şikayət edə bilər (4). Göründüyü kimi Azərbaycan Respublikasının əsas hüquqi mənbəsində inzibati və eləcə də məhkəmə qaydasında şikayətin verilməsi üçün heç bir halda məhdudiyyət müəyyənləşdirilməmişdir.

Bununla belə, inzibati orqanların inzibati fəlaiyyəti sahəsində qəbul etdikləri bütün aktlar inzibati akt hesab oluna bilməz. Milli qanunvericlik sistemi bu baxımdan inzibati orqanların inzibati fəaliyyəti nəticəsində qəbul etdiyi aktları iki yerə ayırır. İnzibati orqan tərəfindən qəbul edilən normativ hüquqi

aktlar və inzibati orqan tərəfindən qəbul edilən qeyri normativ hüquqi aktlar. Burada daha bir məsələni də qeyd etmək lazımdır ki, inzibati fəaliyyət təkcə inzibati orqanlar tərəfindən deyil, eyni zamanda məhkəmə və qanunvericilik orqanlarının inzibati fəlaiyyəti nəticəsində də qəbul edilə bilər. Məsələn məhkəmə sədlərinin işçini işə götürməsi, işdən çıxarması və s., eyni zamanda, qanunvericilik hakimiyyətinin başında duran Azərbaycan Respublikası Milli Məclis Sədrinin fəaliyyətində də müxtəlif inzibati fəaliyyət olur. Belə fəaliyyət daha çox əmr göstəriş və s. digər bu formalarda rast gəlinir.

Yuxarıda qısa şəkildə inzibati aktın qəbulu, onun mübahisləndirilməsi məsələlərinə toxunuldu. İnzibati aktlarla daha bir nüans bu aktların icra edilməsi mexanizmidir. İnzibati aktlar tətbiq olunduğu şəxs barəsində məcburi olaraq tətbiq edilməlidir. İnzibati aktların icra edilməsi geniş formada nəzərdə tutulmuş icra tədbirləri vasitəsilə həyata keçirilir. Bunlara cərimələr, müəyyən hərəl追ətlərin esilməsinə məcbur etmə, müəyyən hərəkətlərin edilməsini məcburi olaraq dayandırma və s. formasında olur ki, qeyd olunan bu məcburi icra tədbirlərini tətbiq edən inzibati orqanlar da qanunvericilikdə onlara verilmiş səlahiyyət hədlərini aşmamalı, öz fəaliyyətində insan və vətəndaş hüquq və azadlıqlarını əsas götürməlidir (Əliyev, 2019: 265).

## Nəticə

İnzibati hüquqi aktların qısa təhlili ilə bu nəticəyə gələ bilərik ki, Azərbaycan Respublikasının milli qanunvericilik sistemi inzibati hüquqi akların tətbiqində müasir yanaşmalardan istifadə etmiş, bunun əsasında qanunvericilik bazası formalaşdırılmışdır. Bununla belə dəyişən ictimai münasibətlərin fonunda qanunvericilik sisteminin bəzi çatışmazlıqları hələ də mövcuddur ki, qeyd olunan hallar aradan qaldırılmalıdır. Bununla bağlı AR Konstitusiyası ilə "İnzibati icraat haqqında" Qanun və eləcə də "Azərbaycan Respublikasının İnzibati Prosessual" Məcəlləsinin hüquqi təbiətlərində müəyyən uyğunsuzluqlar vardır. Bununla bağlı olaraq ölkənin əsas qanunun müasirləşdirilməsinə, qanunda nəzərdə tutulmuş müddəaların hüquqi baxımdan daha da dəqiqləşdirilməsinə ehtiyac vardır. Əlbətdə hüquqi qüvvə baxımından AR Konstitusiyası əsas qanun hesab olunur və digər normativ aktlar ona uyğun olmalıdır. Lakin AR Konstitusiyasının əsas mətninin hələ 1995-ci ildə yazılmış olması konstitusiyada müəyyən hüquqi dəqiqləşdirilmələrin aparılmasının zəruri olmasını da qüvvətləndirən amildir.

## Ədəbiyyat

1. "İnzibati icraat haqqında" AR Qanunu- Bakı, 21 oktyabr 2005-ci il. https://www.e-qanun.az/framework/11254.
2. "Normativ Hüquqi aktlar haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanunu- Bakı, 21 dekabr 2010-cu il. https://www.e-qanun.az/framework/21300.
3. AR İnzibati Prosessual Məcəlləsi (Bakı, 30 iyun 2009-cu il).
4. AR Konstitusiyası (Bakı, 12 noyabr 1995-ci il). https://www.e-qanun.az/framework/897.
5. Azərbaycan Respublikası Mülki Məcəlləsinin 2.5-ci maddəsinin şərh edilməsinə dair Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun 24 aprel 2019-cu il tarixli Plenum Qərarı- Bakı, 24 may 2019-cu il. / https://e-qanun.az/framework/42500.
6. Belskiy, K.S. Kozlov, Y.M. Kolibaba, Q.N. Petrov, S.M. Popov, L.L. (1999), Adminstrativnoe pravo, Moskva. s. 728.
7. Əliyev, S. (2019), İnzibati hüquq, Bakı: 679. s. 265 https://e-qanun.az/framework/46956.
8. Mehdiyev, F. (2010), İnzibati hüquq, Bakı. s: 511 184.

**Rəyçi: h.ü.f.d Nəsib Şükürov**

Göndərildi: 05.05.2022 Qəbul edildi: 28.07.2022

DOI: https://doi.org/10.36719/2789-6919/12/19-23

**Röya Mirtaleh qızı Mirtalıbova**
Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası
magistrant
roya.mirtalibova@gmail.com

# BEYNƏLXALQ HÜQUQDA YURİSDİKSİYA MƏSƏLƏLƏRİNDƏ NƏZƏRİ VƏ PRAKTİKİ PROBLEMLƏR: ÜMUMHÜQUQİ VƏ İNDİVİDUAL YANAŞMA

## Xülasə

Dövlətin suveren hüquqlarının realizəsi üçün yurisdiksiya anlayışı mühüm əhəmiyyətə malikdir və buna görə də dövlətlərin qarşılıqlı münasibətlərin həyata keçirilməsinin bütün mərhələlərində bu institutun əhəmiyyəti, rolu və mahiyyəti haqqında məsələ özünün aktuallığı ilə həmişə diqqəti cəlb etmiş, beynəlxalq və dövlətdaxili hüquq doktrinasında ciddi müzakirələrə və elmi araşdırmalara stimul vermişdir. Latın mənşəli termin olan *yurisdiksiya*- azərbaycan dilində *hüquqdan danışıram* mənasını ifadə etməklə hüquqi praktikada istifadə olunan ən geniş yayılmış terminlərdən biridir, lakin nə qədər paradoksal olsa da nə dövlətdaxili hüquqda, nə də beynəlxalq hüquqda onun mahiyyəti və məzmununa dair vahid yanaşma və anlayış yoxdur. beynəlxalq hüquqda və dövlətdaxili hüquqda yurisdiksiyanın müəyyənliyinə dair elmi nəzəriyyələri və konsepsiyaları araşdırmaq və təhlil etmək; yurisdiksiyanın hüquq praktikasında tətbiq edilən növlərini və tətbiqi prinsiplərini izah etmək; beynəlxalq və dövlətdaxili qanunvericilik aktlarında universal yurisdiksiyanın nəzərə alınması şərtlərini, tətbiq dairəsini müqayisəli şəkildə araşdırmaq və buna müvafiq olaraq təklif və tövsiyələr vermək; dövlətlərin və beynəlxalq orqanların praktikasında universal yurisdiksiya prinsipinin hansı kontekstdə nəzərə alınıb-alınmamasına dair konkret işləri təhlil etmək; universal yurisdiksiyanın tətbiq sferasına aid olan cinayətlərin milli qanunlarda nəzərə alınması xüsusiyyətlərini üzə çıxarmaq; AR-ın cinayət qanununun universal yurisdiksiyaya dair mövqeyini təhlil etmək və uyğunsuzluqları qeyd etmək və s. yazı işinin məqsədlərini təşkil edir.

***Açar sözlər:*** *dövlət suverenliyi, kompetensiya, toxunulmazlıq, konvensiya, yurisdiksiya, mühakimə*

**Roya Mirtaleh Mirtalibova**

# Theoretical and practical problems in the matters of jurisdiction in international law: general and individual approach

## Abstract

The concept of jurisdiction is of great importance for the realization of the sovereign rights of the state, and therefore the importance and role of this institution at all stages of the implementation of mutual relations between states. and the issue of its essence has always attracted attention with its relevance, stimulated serious discussions and scientific researches in international and domestic legal doctrine. Jurisdiction, which is a term of Latin origin, is one of the most widespread terms used in legal practice, expressing the meaning of "I am talking about law" in the Azerbaijani language, but no matter how paradoxical it is, neither domestic law nor international law has a unified approach and understanding of its essence and content. there is no to examine and analyze the scientific theories and concepts of the determination of jurisdiction in international law and domestic law; to explain the types and application principles of jurisdiction applied in legal practice; to comparatively examine the conditions of consideration of universal jurisdiction in international and domestic legislative acts, the scope of application and make suggestions and recommendations accordingly; to analyze concrete cases on the context in which the principle of universal jurisdiction is taken into account in the practice of states and international bodies; to reveal the features of consideration of crimes in national laws that belong to the sphere of application of universal jurisdiction; To analyze the position of AR's criminal law on universal jurisdiction and point out inconsistencies, etc. constitutes the goals of the writing work.

***Keywords:*** *state sovereignty, competence, immunity, convention, jurisdiction, judgment*

## Giriş

Dövlətin suveren hüquqlarının realizəsi üçün yurisdiksiya anlayışı mühüm əhəmiyyətə malikdir və buna görə də dövlətlərarası münasibətlərin həyata keçirilməsinin bütün mərhələlərində bu institutun əhəmiyyəti, rolu və mahiyyəti haqqında məsələ özünün aktuallığı ilə həmişə diqqəti cəlb etmiş, beynəlxalq və dövlətdaxili hüquq doktrinasında ciddi müzakirələrə və elmi araşdırmalara stimul vermişdir. Yurisdiksiya termininin özü bu gün hüquqi praktikada ən geniş yayılmış terminlərdən biridir və onun yaranması və inkişafı elmi tədqiqatlarda dövlət və hüququn yaranması və inkişafı ilə əlaqələndirilir. Lakin, bu terminin müxtəlif situasiyalarda tez-tez işlədilməsinə baxmayaraq elmdə və praktikada onun mahiyyəti və məzmununa dair vahid yanaşma yoxdur. Paradoksal olsa da müasir beynəlxalq hüquqda da yurisdiksiyanın anlayışına dair nə universal, nə də regional beynəlxalq müqavilələrdə hər hansı bir məqbul anlayışa rast gəlinmir. Yurisdiksiyaya bəzən daha çox beynəlxalq-hüquqi aktlarda müqavilənin iştirakçı-dövlətlərinin hər hansı obyektlərə və ya ərazinin müəyyən hissəsinə suveren hakimiyyətinin şamil olunması kimi, daha dəqiq vurğulasaq ərazi hökmranlığının təzahürü kimi münasibət bildirilir. Belə sazişlərə bariz nümunə BMT-in Dəniz hüququ üzrə 1982-ci il Konvensiyasını göstərmək olar. Həmin Konvensiyanın 59-cu maddəsində qeyd olunur ki, sahilyanı dövlət müstəsna iqtisadi zonada həmin Konvensiyanın müvafiq müddəalarında nəzərdə tutulmuş məsələlər üzrə yurisdiksiyaya malikdir: a) süni adaların, qurğuların, tikililərin yaradılması və istifadəsi; b) elmi tədqiqat işlərinin aparılması; c) dəniz mühitinin qorunması.

Başqa beynəlxalq sazişlərdə isə yurisdiksiya əməlin kriminallaşdırılmasının və o cümlədən, dövlətin səlahiyyətli orqanlarının cinayət-prosessual hərəkətləri həyata keçirməsi də daxil olmaqla, transmilli cinayətlər üzrə tədbirlərin tətbiq edilməsi kimi qəbul edilir. Bir qayda olaraq, belə konvensiyalar cinayət yurisdiksiyasının həyata keçirilməsinin mümkünlüyünü cinayət qanununun mühüm prinsipləri olan məkan və şəxslər dairəsinə görə müəyyən edir. Belə beynəlxalq hüquqi aktlara: Mülki aviasiyanın təhlükəsizliyinə qarşı yönələn qanunsuz aktlarla mübarizə haqqında 1971-ci il Konvensiyasını; Diplomatik agentlərə və beynəlxalq müdafiədən istifadə edən şəxslərə qarşı cinayətlərin qarşısının alınması və cəzalandırılması haqqında 1973-cü il Konvensiyasını; Adamların girov götürülməsinə qarşı mübarizə haqqında 1979-cu il Konvensiyasını və b. misal göstərmək olar. Bir sıra beynəlxalq hüquqi aktlar mövcuddur ki, haradakı yurisdiksiya məhkəmə orqanlarının səlahiyyətinə aid olan kompleks prosessual tədbirləri şərtləndirir. Belə bir müəyyənlik Beynəlxalq Cinayət Məhkəməsinin 1998-ci il tarixli Statutunda və Dövlətlərin və onların mülkiyyətinin yurisdiksiya immuniteti haqqında 2004-cü il Konvensiyasında öz təsbitini tapmışdır. Məsələn, Dövlətlərin və onların mülkiyyətinin yurisdiksiya immuniteti haqqında 2004-cü il Konvensiyası üzərində BMT Beynəlxalq Hüquq Komissiyasının işi zamanı xüsusi məruzəçi yurisdiksiyanın aşağıdakı anlayışını təklif etmişdir: Yurisdiksiya termini-əraziyə münasibətdə dövlətin məhkəmə icraatı qaldırmaq, mübahisələri həll etmək və ya mülki məhkəmə mübahisələrinə münasibətdə qərar çıxarmaq, həmçinin onun bütün aspektlərində ədalət mühakiməsini həyata keçirmək səlahiyyəti deməkdir (1).

Yurisdiksiyanın müxtəlif aspektlərinə həsr olunmuş beynəlxalq-hüquqi tədqiqatların təhlili belə bir nəticəyə gəlməyə imkan verir ki, alimlər tərəfindən yurisdiksiyanın məzmunu üç əsas kontekstdə nəzərdən keçirilir. Birinci mövqeyin tətəfdarları yurisdiksiyanın hüquqi təbiətinin müəyyənliyi üçün genişləndirici təfsiri qəbul edirlər. Məsələn, Q.Oksman hesab edir ki, dövlətin yurisdiksiyası adı altında onun ən geniş mənasında müvafiq dövlətin fəaliyyət göstərməsinin qanuni hüquqa malik olması, nəyisə həll etmək hüququ, əgər fəaliyyət göstərərsə, necə hərəkət etməsi başa düşülür. Tanınmış beynəlxalq hüquqşünas alim Malkolm Şou yazır ki, yurisdiksiya dövlətin insanların əmlakına və insani hallara təsir etmək səlahiyyətidir və o, dövlət suverenliyinin, dövlətlərin bərabərliyinin və daxili işlərə qarışmamaq prinsiplərinin əsasını təşkil edir. A.A.Moiseyev də yurisdiksiyanın genişləndirici təfsirinə sadiqlik nümayiş etdirir və təsdiq etməyə çalışır ki, dövlətin yurisdiksiyası həmin dövlətin hüquqa uyğun fəaliyyətinə, onun dövlət hakimiyyətinə imkan verən hüquq və səlahiyyətlərinin məcmusudur (Revrebayov, 2018: 32). O, öz fikrinin təsdiqi üçün Rusiya Federasiyasının Konstitusiyasının 71-ci və 72-ci maddələrinin göstərişlərinə, yəni Rusiya Federasiyasının müstəsna səlahiyyətinə və onun subyektləri ilə birgə həyata keçirdiyi işlər dairəsinə istinad edir. Bu anlamda müəllif yurisdiksiyanı dövlətlə onun səlahiyyətli orqanlarının simasında kompleks hüquq və səlahiyyətlərə malik olmaqla eyniləşdirir. Lakin belə genişləndirici təfsir mahiyyəti üzrə yurisdiksiyanın hüquqi təbiəti ilə kompetensiyanın hüquqi təbiəti arasında bərabərlik nişanı qoyur və təbii ki, bununla razılaşmaq çətin ki,

mümkün olsun. S.V.Çerniçenkonun rəyinə görə, kompetensiyanın sinonimi qismində bu terminin tez-tez işlədilməsinə baxmayaraq, belə yanaşma bu hadisənin bütün tərəflərinin açılmasına imkan vermir. Yurisdiksiyanın dövlətin kompetensiyası qismində qəbul olunması professor V.L.Tolstıx tərəfindən də müdafiə olunur.

Beləliklə, yurisdiksiya dövlət suverenliyinin təzahürü, dövlət hakimiyyətinin həcmi və fəaliyyət sferası, hüquqi və fiziki şəxslər üçün icrası məcburi olan göstərişlər vermək və özünün sərəncamında olan bütün qanuni vasitələrdən istifadə etməklə həmin göstərişlərin realizəsini təmin edən dövlət hakimiyyətidir (Hüseynov, 2012: 187).

Universal yurisdiksiyanın tətbiqinin müəyyən şərtlər altında beynəlxalq hüquqda qəbul edilməsinə baxmayaraq, bunun üçün ciddi məhdudiyyətlər hələ də mövcuddur. Bu problemlər daha çox ondan qaynaqlanır ki, heç də bütün ölkələr universal yurisdiksiyanı öz milli hüquq sisteminə daxil etməmişlər, yaxud öz milli məhkəmələri tərəfindən bu prinsipin birbaşa tətbiq etmək səlahiyyətini tanımırlar. Əvvəlki paraqrafda vurğulandığı kimi digər məhdudiyyət isə məsələnin siyasi tərəfləri ilə bağlıdır. Məhkəmələrin rastlaşdıqları digər məhdudiyyətlər mühakimə icraatı başlanan şəxslərin digər dövlətlərdə yüksək vəzifə və səlahiyyət sahibi olması ilə bağlı olur. Buna görə də universal yurisdiksiyanın tətbiqi çox zaman siyasi maraqların toqquşmasına, diplomatik gərginliyin yaranmasına səbəb olur. Bu səbəbdən, diplomatik toxunulmazlıq prinsipi universal yurisdiksiyanın tətbiqində digər mühüm faktorlardan biri kimi. çıxış edir. Bütün bu göstərilən aspektlərlə yanaşı, bəzi digər məhdudiyyətlər də mövcuddur. Universal yurisdiksiyanın təsiri altına düşən cinayətləri törətməkdə şübhəli bilinən şəxslərə dair amnistiyanın verilməsi və şübhəli bilinən şəxslərin mühakimə zamanı həmin ölkə ərazisində olması tələbi, yəni qiyabi mühakimənin (universal yurisdiksiya in absentia) nə dərəcədə yol verilən olması bu problemin digər mühüm aspektləridir.

Universal yurisdiksiya in absentia (qiyabi mühakimə): Hal-hazırda beynəlxalq və dövlətdaxili hüquq doktrinasında və məhkəmə praktikasında ən çox müzakirə olunan məsələ cinayət törətmiş şəxsin universal yurisdiksiya in absentia, yəni qiyabi mühakimə edilib-edilməməsi problemi ilə bağlıdır. Başqa sözlə, dövlət qiyabi olaraq cinayət törətmiş şəxsə universal yurisdiksiyanı həyata keçirmək hüququna malikdirmi? Bu məsələ ilə bağlı beynəlxalq hüquqda heç də birmənalı mövqeyin olmadığı görünür. Belə ki, bir halda milli qanunlar ittiham olunan şəxsin mühakimə icraatında olmasının vacibliyini, başqaları isə - universal yurisdiksiya in absenti qaydasında mühakiməsinə yol verir. Bununla əlaqədar olaraq bu kontekstdə universal yurisdiksiyanın növlərinin fərqləndirilməsi məqsədəmüvafiq hesab olunmalıdır və bu zaman belə fərqləndirmənin əsas meyarı qismində ittiham olunan şəxsin hüquq pozuntusu üzrə təqib etməni həyata keçirən dövlətin ərazisində olması faktı çıxış edə bilər.

Universal yurisdiksiyanın tətbiqi haqqında məsələni nəzərdən keçirərək, Beynəlxalq Məhkəmənin ad hoc hakimi olmuş Van den Vindcert Conqo Demokratik Respublikası Belçikaya qarşı işdə özünün xüsusi rəyində vurğulamışdır ki, universal yurisdiksiya termini o demək deyildir ki, ittiham olunacaq şəxs bütün hallarda onun mühakiməsini və təqibini həyata keçirən dövlətin ərazisində olmalıdır və bəzi müəlliflərin vurğuladığı kimi belə iştirakın vacibliyi hüquqi tələbdir (Məmmədov, 2000: 77). Judex deprehensionis – ubi te invenero ibi te judicado-yəni cinayətkar icraatda iştirak etməlidir adlanan latın maksiması universal yurisdiksiya üçün heç bir əhəmiyyət kəsb etmir və buna görə də onun bu qaydada qəbul olunması əsassızdır.

Universal yurisdiksiya in absentia qaydasında ittiham olunan şəxsin mühakiməsinin mümkünlüyü müharibə cinayətlərinin əsas tərkib ünsürlərini ehtiva edən Müharibə qurbanlarının müdafiəsinə dair 1949-cu il IV Cenevrə Konvensiyasının 146-cı maddəsinin dispozisiyasında da öz təsbitini tapıb, xüsusən, bu cinayətləri törətməkdə ittiham olunan şəxslərin, ya ver ya cəzalandır prinsipi də daxil olmaqla dövlətlər tərəfindən bütün zəruri tədbirlər görməklə cəzalandırılması müəyyən edilib. Həmin maddənin mətni təfsirindən belə bir nəticə hasil olur ki, ittiham olunan şəxsin təqib etməni həyata keçirən dövlətin ərazisində olmaması, onun mühakimə edilməməsi üçün əsas ola bilməz. Bir halda ki, həmin maddədə aut dedere aut judicare prinsipinin tətbiqinin mümkünlüyündən bəhs edilir. Lakin bununla belə, bir sıra tədqiqatçılar in absentia universal yurisdiksiyanın tətbiqinin yolverilməzliyi haqqında fikirlər səsləndirirlər (məsələn, Jilber Qay, Donadye de Fabr və b.). Həmin tədqiqatçılar qiyabi mühakimənin yolverilməzliyini o faktlarla əsaslandırırlar ki, bunun tətbiqinin mümkünsüzlüyü üçün prosessual maneələr mövcuddur. Qeyd olunur ki, qiyabi mühakimə icraatı proses iştirakçılarının hüquqlarının pozulmasına gətirib çıxara bilər. Göründüyü kimi, beynəlxalq cinayət hüququnun son

dövrdə olan inkişaf göstəricilərinə rəğmən, ciddi və kobud insan hüquqları pozuntusuna görə şəxslərin beynəlxalq hüquqi məsuliyyətə cəlb olunması məsələsi hələ də ciddi müqavimətlə üzləşməkdədir. Doktrinal narazılıqlar özü-özlüyündə universal yurisdiksiya praktikasının dövlətlər tərəfindən həyata keçirilməsinə, beynəlxalq cinayətlərə görə şəxslərin mühakimə olunmasına öz mənfi təsirini göstərir.

Qiyabi universal yurisdiksiyaya qarşı olan arqumentlərin əksəriyyəti əslində universal yurisdiksiya təcrübəsinin genişlənməsinə qarşı olmaqdan irəli gəlir. Adətən, belə bir təəssürat yaranır ki, dövlətlər beynəlxalq hüquqda ağır cinayətlər törədənlərə qarşı səmərəli beynəlxalq mübarizə mexanizmini yaratmaqdan daha çox öz suveren hüquqlarını qorumaq maraqlarından çıxış edirlər (Məmmədov, 2012: 274). Əslində, dövlətlər siyasi qalmaqalların artması səbəbi ilə universal yurisdiksiyanın tətbiqi ilə bağlı cinayətlərin təqibinə başlamaqda o qədər də həvəsli görünmürlər.

Qeyd olunanlardan belə bir nəticə hasil olur ki, universal yurisdiksiyanın tətbiqi üçün baş vermiş cinayət əməli ilə dövlətin əlaqəsini müəyyən etmək lazımdır. Ona görə ki, universal yurisdiksiyanın tətbiqi dəfələrlə maraqlı dövlətlər tərəfindən müqavimətlə qarşılaşıb. Hələ Adolf Eyhman işində həmin şəxsin İsrailin xüsusi xidmət orqanları tərəfindən Argentinadan oğurlanaraq İsrailə aparılması Argentinan etirazına səbəb olmuşdur və sonradan yaranmış mübahisə diplomatik yolla həll edildiyi üçün Argentina Beynəlxalq Məhkəməyə müraciət etməmişdi.

Diplomatik toxunulmazlıq: Diplomatik toxunulmazlıq hüququ universal yurisdiksiyanın tətbiqi zamanı qarşıya çıxan ciddi məhdudiyyətlərdən biridir. Dövlət rəsmisinin toxunulmazlığı üzrə son qərar insanlıq əleyhinə cinayətlərdə ittiham olunan Konqo Xarici İşlər Nazirinə qarşı çıxarılan Belçikanın məhkəməsinin həbs sanksiyası ilə bağlı Konqo Demokratik Respublikasının Belçikaya qarşı *(Arrest Warrant case)* 2002-ci ildə Beynəlxalq Məhkəmədə qaldırdığı işlə bağlı qəbul edilmişdi. Diplomatik toxunulmazlıq prinsipinin prioritetliyini tanıyan Məhkəmə *Arrest Warrant case* ilə əslində milli məhkəmələr tərəfindən universal yurisdiksiyanın həyata keçirilməsinə mənfi impuls vermiş oldu. Bir sıra cinayətlərlə bağlı universal yurisdiksiyanın həyati əhəmiyyət kəsb etməsinə baxmayaraq onun tətbiqi adətən diplomatik gərginliklə müşayiət olunur. (Universal yurisdiksiya konsepsiyasının mahiyyəti və məntiqi aydın olsa da bir dövlət tərəfindən həmin prinsipin həyata keçirilməsi beynəlxalq münasibətlərin sabitliyini poza, suverenliyi və digər dövlətin suveren bərabərliyini pozması kimi qiymətləndirilə və hətta bəzi sui-istifadə hallarına gətirib çıxarması ehtimalı hər zaman diqqəti çəkən məqamdır. Bunun üçün bütün dövlətlərin yaxından əməkdaşlığı, cəzasızlığa qarşı dövlətlərin mübarizəsi çox vacibdir. Yalnız bu halda universallıq prinsipinin ciddi problemlərə səbəb olmasından yayınmaq olar ki, bu da onun beynəlxalq münasibətlərdə sabitliyə səbəb olan faktor olmasından yayınmağa imkan vermiş olar (6).

Bir sıra tədqiqatlarda haqlı olaraq vurğulanır ki, beynəlxalq hüququn əsas cinayətləri üzərində universal yurisdiksiyanın həyata keçirilməsi praktikasinda səmərəliliyə nail olmaq üçün beynəlxalq təsisatlar əməkdaşlığın artması vasitəsilə dövlətlər arasındakı gərginliyin azalmasına yaxından yardım göstərməlidirlər. Əks halda, dövlət immuniteti milli məhkəmələr tərəfindən universal yurisdiksiyanın həyata keçirilməsi üçün ciddi maneələrdən biri olaraq qalmaqda davam edəcək. Lakin *Arrest Warrant case*-də Beynəlxalq Məhkəmənin qeyd etdiyi kimi, faktiki olaraq, bu immunitet beynəlxalq trubunallara müəyyən hallarda mühakimə araşdırmasına başlamağa maneçilik törətmir. Amma digər hallar üçün, yəni milli məhkəmələr tərəfindən immunitetə malik olar şəxslər barədə məhkəmə araşdırmasına başlamaq ciddi maneələrdən biri kimi növbəti cavabsız sual olaraq qalır. Əslində ağır beynəlxalq cinayətlər üzərində mühakimə icraatı aparmaq üçün milli məhkəmələr məhdud yurisdiksiya imkanları yaradan beynəlxalq alətlərə malikdirlər və belə bir məhdudiyyətlərin tətbiqi bu vasitələrdən səmərəli istifadəyə mane olur. Lakin Yuqoslaviya və Ruanda Tribunallarında yüksək vəzifəli şəxslərin insan hüquqlarının ciddi şəkildə pozulması ilə müşahidə olunan cinayətlərdə ittiham edilərək mühakimə olunmaları artıq bu kimi real tendensiyaları əks etdirir (Süleymanlı, 2009: 75). Bu o deməkdir ki, toxunulmazlıq hüququ vəzifəli şəxslərin etdiyi cinayətlərə görə mühakimədən sığortalanmaq vasitəsinə deyil, əksinə öz səlahiyyətlərini effektiv şəkildə həyata keçirilməsi məqsədləri üçün istifadə olunmalıdır.

Amnistiya aktlarının qəbulu ilə bağlı məhdudiyyətlər: Dəniz quldurluğu və qul ticarəti kimi cinayətlər istisna olmaqla, digər universal yurisdiksiya cinayətləri adətən, öz ölkələrində siyasi hakimiyyət uğrunda mübarizə aparan siyasi qruplar, insanlar tərəfindən törədilir. Bu baxımdan, bu kimi ağır cinayətləri törətməkdə şübhəli bilinən şəxslərə amnistiyanın verilməsi qanunların effektivliyinin ciddi çatışmazlığı olduğu ölkələrdə müşahidə olunan ümumi təcrübədir. Misal üçün, insanlıq əleyhinə

cinayətlər universal yurisdiksiyanın tətbiq olunduğu ağır cinayətlərdən biridir. Lakin bu cinayətlə bağlı verilən daxili amnistiyanın nə dərəcədə qanuni olması beynəlxalq hüquqla dəqiq şəkildə müəyyən olunmamışdır. İnsan hüquqları ilə bağlı Konvensiyalar da o dərəcədə inkişaf etməmişdir ki, insanlıq əleyhinə cinayətləri törətməkdə şübhəli bilinən şəxslərin mühakimə olunması ilə bağlı dövlətlər qarşısında birbaşa tələb irəli sürülsün. Sadəcə ona görə ki, nə beynəlxalq adət hüququ, nə də beynəlxalq konvensiyalar insanlıq əleyhinə cinayətləri törədən şəxslərin mühakimə olunması ilə bağlı dövlətlərin üzərinə birbaşa hüquqi öhdəlik qoymur. Hesab edirik ki, 2013-cü ildən BMT himayəsi altında hazırlanan İnsanlıq əleyhinə cinayətlərlə mübarizə haqqında Konvensiya layihəsində bu məsələ öz pozitiv həllini tapacaqdır (Tezcan, 2009: 436).

Digər məhdudiyyətlər: Milli məhkəmələr tərəfindən universal yurisdiksiyanın həyata keçirilməsi üçün digər məhdudiyyətlər də vardır. Bir çox məhdudiyyətlər məsələnin texniki və proses sual tənzimetmələri ilə bağlıdır. Milli məhkəmələrin rastlaşdıqları praktiki çətinliklər əsasən bunlardır: a) cavabdehin iştirakı; b) kifayət qədər sübutun mövcudluğu; c) səlistlik; d) dövlət ərazisindəki vəziyyət; e) prokuror üçün resursların mövcudluğu; f) digər ölkələrin münasibəti. Məhz bu çətinliklərə görədir ki, milli məhkəmələr universal yurisdiksiyaya əsaslanaraq məhkəmə araşdırılmasına başlamaqdan çəkinirlər. Bundan əlavə, başqa bir dövlətin vətəndaşı ilə bağlı dövlət tərəfindən universal yurisdiksiyanın həyata keçirilməsi adətən hökumətlərarası ciddi problemlərə səbəb olur.

## Nəticə

Yuxarıda qeyd olunan arqumentlərə əsaslanaraq belə bir nəticəyə gələ bilərik ki, texniki və digər xarakterli çətinliklər dünyanın bir hissəsində beynəlxalq hüquqla tanınan ağır cinayətləri törədib, digər hissəsində sığınacaq tapmaq cəhdləri qarşısında dünya dövlətləri passivlik nümayiş edirməsinə haqq qazandırmır. Beynəlxalq hüququn *aut dedere aut judicare* prinsipi tələb edir ki, bu kimi oxşar hallarda dövlətlər iki seçimdən birini etməklə bağlı addım atmalıdır: bu kimi cinayətlərdə şübhəli bilinən şəxsləri ya təqib etmək, ya da bu təqibi həyata keçirmək istəyində olan digər bir dövlətə təslim etmək. Bu prinsipin səmərəli tətbiqinə nail olmaq üçün dövlətlərin bu kimi hallarda hansı addım atmaları ilə bağlı beynəlxalq konvensiya qaydasında cavabdehliyi institutunun ciddi şəkildə inkişaf etdirilməsinə ehtiyac var. Hesab edirik ki, Azərbaycan Respublikası da daxil olmaqla, bütün dünya dövlətləri universal dəyərlər hesab olunan sülh və təhlükəsizliyin, insan hüquq və azadlıqlarının pozulmasına qəsd edən, onu zədələyən ağır beynəlxalq cinayətlərə görə universal yurisdiksiyanın tətbiqinin səmərəliliyinə hər vəchlə yardım etməli və onu dəstəkləməlidir.

## Ədəbiyyat

1. Azərbaycan Respublikasının Cinayət Məcəlləsi (2016), Bakı: Diqesta, 464 s.
2. Revrebayov, C. (2018), Beynəlxalq hüququn ümumi hissəsi. Bakı: Ləman, 420 s.
3. Hüseynov, L. (2012), Beynəlxalq hüquq. Bakı: Qanun, 368 s.
4. Məmmədov, R. (2000), Cinayət qanununun ərazidənkənarlıq yurisdiksiyası. Bakı: Beynəlxalq hüquq jurnalı № 4/5, 150-157 s.
5. Məmmədov, R. (2012), Beynəlxalq cinayət hüququ və Azərbaycan Respublikasının cinayət qanunvericiliyi. Bakı: Nat Co MMC, 312 s.
6. 1949-cu il 12 avqust tarixli Cenevrə Konvensiyaları və onlara Əlavə Protokollar
7. Süleymanlı, S. (2009), Universal yurisdiksiyanın hüdudları və məhdudiyyətləri. Bakı: Azərbaycan, 128 s.
8. Tezcan, D. (2009), Beynəlxalq cəza hüququ. Ankara: Bilim, 655 s.
9. Maksavelli, J. (2017), States from international side of law. America: Lawyer researchings, 738 p.

**Rəyçi: h.ü.e.d. Mayis Əliyev**

Göndərildi: 10.05. 2022 Qəbul edildi: 29.07. 2022

DOI: https://doi.org/10.36719/2789-6919/12/24-29

**Pərvanə Mirələm qızı Qasımova**
Azərbaycan Dövlət Pedaqoji Universiteti
aamrahli@mail.ru

# FOLKLORUN SƏCİYYƏVİ XÜSUSİYYƏTLƏRİ

**Xülasə**

Folklorun estetik əhəmiyyəti ilk öncə onunla şərtlənir ki, o dil, fikir və bədii düşüncənin əsasında xalqın yaratdığı mükəmməl bir söz sənətidir. Folklor xəyal, təxəyyül, fantaziya və simvolikadan sənətkarlıqla istifadə edərək gerçəkliyi dolayı yolla motivləndirir və onu poetikləşdirir. Bu poetikləşdirmə, sənət yaratma prosesində əsas vəzifəni xalqın bəddi zövqü yerinə yetriri. Yəni, xalqın bədii zövqü folklorun estetik ölçülərini müəyyənləşdirən və modelləşdirən əsas faktor rolunda çıxış edir. Folklor formaları əsrlərlə xalq sənətkarları tərəfindən cilalanıb və estetik ölçülərini sabitləşdirib. Ona görə də folklor estetik hissi, gözəllik hissini, dil, ritm və forma gözəlliyi duyğusunu inkişaf etdirir. Folklorun estetik gücü ədəbiyyat, musiqi, teatr və s. kimi sənət növlərinin inkişafında böyük əhəmiyyət daşıyır. Məqalədə bütün bunlar öyrənilərək araşdırılır, foklorun səciyyəvi xüsusiyyətləri üzə çıxarılır.

***Açar sözlər:*** *folklor, xalq, xüsusiyyət, ədəbiyyat, estetika*

**Parvana Miralam Gasimova**

## Characteristics of folklore

**Abstract**

The aesthetic importance of folklore is determined by the fact that it is a perfect art of words created by the people on the basis of language, ideas and artistic thinking. Folklore indirectly motivates reality and poeticizes it by skillfully using dreams, imagination, fantasy and symbolism. In the process of this poeticization, art creation, the main task is performed by the people's bad taste. That is, the artistic taste of the people acts as the main factor that determines and models the aesthetic dimensions of folklore. Folklore forms have been polished by folk artists for centuries and stabilized their aesthetic dimensions. Therefore, folklore develops aesthetic sense, sense of beauty, sense of beauty of language, rhythm and form. The aesthetic power of folklore is literature, music, theater, etc. is of great importance in the development of such arts. In the article, all this is studied and investigated, the characteristic features of folklore are revealed.

***Keywords:*** *folklore, folk, character, literature, aesthetics*

## Giriş

Termin olaraq "Folklor" (Folk-lore) ingilis sözü olub "xalq hikməti", "xalq müdrikliyi" və "xalq bilikləri" mənasını bildirir. "Folklor" sözü termin kimi ilk dəfə 1846-cı ildə ingilis alimi Uilyam Toms tərəfindən işlədilmişdir. William J.Thoms "Atheneum" adlı jurnalda Ambrose Merton təxəllüsü ilə yazdığı məqalədə "popular antiquites" (xalq əntiqləri, xalq inciləri) deyilən nümunələri toplayıb nəşr etmək fəaliyyətini adlandırmak çün "Folk-lore" terminini düşünüb təklif etmiş və bu termin elmi ictimaiyyət tərəfindən qəbul edilmişdir. Bu dönəmdə Toms tərəfindən nəşr edilən "Notes and Quaries"(Qeydlər və qaynaqlar) adlı jurnal və digər məhəlli xalq mədəniyyəti dərgiləri ingilis folklorunu toplama və nəşr fəaliyyətini təşkil edən ilk qurumlardır. 1878-ci ildə dünyada ilk folklor araşdırma dərnəyi olan "The Folklore Sosiety" (Folklor cəmiyyəti) qurulur və "Folklore" adlı jurnal təsis edilir. Bu jurnal bu günədək nəşr olunmaqdadır. Bunun ardınca ölkənin müxtəlif yerlərində folklor araşdırma təşkilatları yaradılır. Bunlara Kembricdəki "Folklor cəmiyyəti"ni, Oksforddakı "Ascholean Museum", "Scottish archive for etnological, Lingusitic and folkloric studies" və "Royal Scottish Museum" misal göstərilə bilər (Çobanoğlu, 1999: 19).

İngiltərədə folklorşünaslıq ənənələr elmi olaraq qəbul edilir. Folklorşünaslıq insanlar arasında ən çox yayılan, ən davamlı və qədim olan xalq yaradıcılığını, xalq sənətləri və xalq sənayesi nümunələrini

araşdırır. Eyni zamanda, folklorşünaslıq təkcə yazılı materialları deyil, babalardan qalan ənənələrin təsiri ilə bu gün də yaşayan inancların, peşələrin və fəaliyyətlərin öyrənildiyi elm sahəsi olaraq qəbul edilmişdir. (Dorson, 1968:99).

Folklor qanunlarının meydana gəlməsindən əvvəl təsadüfən və ya fərqli məqsədlərlə bu gün folklora aid olan mövzularda elmi dəyərləndirmələr həm beynəlxalq miqyasda, həm də ayrı-ayrı ölkələrdə aparılımış və bu sahədə nəzəri təcrübə meydana gəlmişdir. Bu nəzəri mataeriallarda da folklora baxışlar müxtəlifdir. Bunlardan birinə görə. (Taylor, 1961:293). Alman folklor tədqiqatlarının tarixi Hz. İsadan sonra birinci əsrə qədər gedib çıxır. Çünki, miladan sonra 100-cü ildə Tacitusun hazırladığı "Germania" adlı əsərdən başlayaraq 16 və 17 əsrlərdə almanlar arasında alman qədim xalq əsərlərini toplama ( antiquryen) işləri, adət-ənənələrin qeydə alınması gizli və başqa məqsədlər üçün edilmiş olsa da bunlar indiyədək qaranlıq qalmışdır.

XVII əsrin sonundan etibarən tarixi və coğrafi, həm də qədim xalq əsərlərini toplaması bir əntiqçi marağını aşaraq inkişaf etmiş, bundan sonra folklor artıq material kolleksiyaçılığından başqa ciddi bir elmi tədqiqat olaraq görünməyə başlamışdır. Bu ilk cığırların açıldığı dövrdə alman universitetlərində hurilər və ruhlar kimi, xüsusilə də, folklor sahəsində yer tutan mövzuları elmi işlərdə qələmə aldıqlarını belə müşahidə edirik. Ancaq bunlar, xüsusən də, 18 əsr boyunca zəifləməyə və imtina olunmağa başladı. Belə mövzulara daha çox ilahiyyat və oxşar elmlər tərəfindən müraciət olunurdu.

## Əsas hissə

Hazırda mövcud olan folklor nəzəriyyəsinin təməlləri alman Qrim qardaşları tərəfindən XIX əsrin birinci yarısındakı araşdırmalarında qoyulmuşdur. Jacob Qrimmin alman folklor tədqiqatlarına verdiyi istiqamət yaxın zamanlara qədər alman folklorşünaslığının əsas xarakterini təşkil edirdi. Qrim qardaşları yaşadıqları dövrün və tanınmış filosof Herderin istiqamətləndirdiyi romantik mühitin təsiri ilə "alman olma" xüsusiyyətinə malik olan hər şeyin saxlanıb qorunması məqsədilə hərəkət edirdilər. Bu istiqamətin əsasında, xüsusilə, Nopaleon dövrünün Fransız imerializmi, millətlərarası kosmolotizm və alman mədəniyyətinə uyğun mədəni imperialist təhdidin təsirləri dururdu.

Qrim qardaşlarının "almanlıqla" və "almanı alman edən xüsusiyyətlər"ə olan maraqları, özlərindən əvvəl başlamış olan maddi mədəniyyət ünsürlərini toplayan və alman əntiqlərini toplama adəti ilə birləşərək bir tərkib halına gəlir. Qrimlər 1812-ci ildə tanınmış "Ev və pəri nağılları" adlı nağıl kitabını nəşr etdirirlər. Bu iş müvafiq sahə üçün bir standart olma xüsusiyyətini özündə əks etdirir. Bu dövrdən etibarən onların davamçıları ilə birlikdə oxşar işlər görülmüş və görülən işlərdə toplanmış materialların parallelərinin göstərilməsi, onlara qeydlər və izahlar verilməklə nəşr olunması metodu inkişaf etməyə başlamışdır.

Bu metodu götürərək daha da genişləndirən Skandinavyalıların, xüsusilə, Finlandiyalı folklorşünasların işlərinin nəticəsində "Tarixi və coğrafi Fin metodu" olaraq məlum olan metod meydana gəlir. Almanyada Qrim qardaşları ilə birlikdə mətn toplayan və nəşr etdirən folklorçular gördükləri işi "volkskunde" (xalq ədəbiyatı) olaraq adlandırırdılar. 1890-ci ildə "Verein für Volkskunde" adlı xalq ədəbiyyatı materialları və qiymətləndirmə işlərini görən və qısa zamanda Almanyanın hər yerinə yayılan dərnək qurulur. Bu cür sistemli araşdırmaların nəticəsi olaraq bu gün dünyadaki ən böyük folklor arxivi-Almanların "Deutsches Volksliend Archiv at freiburg Breusgaus" adlı xalq mədəniyyəti arxividir.

Bu gün Almaniyada akademik, bürokratik, siyasi həyatda və universitetlərdə xalqa, xalq yaradıcılığına, folklora verilən yer hələ indiyədək dünyanın heç bir ölkəsində verilməmişdir. Almanlar folkloru xalqın keçmişi, ruhu, toplu olaraq, yəni xalq bilikləri kimi qəbul etməkdədirlər. Alman universitetlərində sosiologiya, psixologiya və siyasi elmləri folklorun bir növü və ya qolu olaraq qəbul edirlər və təhsil buna görə qurulur. Qısaca desək, Almaniyada bu gün folklor təhsil və tədrisin, siyasi elmlərin və beynəlxalq əlaqələr bölmələrinin siyasi və mədəni siyasətin qaynağı və təməli olaraq qəbul edilməkdədir.

Malinovskinin 1926-cı ildə nəşr etdirdiyi "İbtidai psixologiyada mif" (Myth in Primifive Psyhology) adlı əsərində (1926; 1954) "məzmun" (context) və "icra" (performance) məfhumları başda olmaqla verdiyi tərifin tətbiqi və bunların funksional əhəmiyyətlərini ortaya qoyan hallərə görə 1970-ci illərdə ortaya çıxan "Performans nəzəriyyə"nin istifadə etdiyi bəzi nəzəri əsasların qurucularından biri və ya V.

Bakomun təsiri ilə aşağıda üzərində duracağımız və R. M. Dorsonun ifadsi ilə "Gənc türklər" (Young Turks) qrupu Amerika Folklorşünaslarının da öndə gələnlərindəndir.

Malinovskiyə görə mədəniyyət "açıqca alətlərin və isteh-lakın müxtəlif ictimai qruplaşmalar üçün həyata keçirilən qanuni sənətlərdən, insana aid düşüncə və bacarıqlardan, inanc və ənənələrdən ibarət olan bir külliyatdır." Biz ibtidai mədəniyyəti belə araşdırsaq orada qismən maddi, qismən insana aid, qismən də mənəvi ehtiyatlarla qarşılaşacağıq. Elə bu ehtiyatlar insanın üzləşdiyi konkret və şəxsi problemlərinin öhdəsindən gələ bilər. Bu prolemlər insanın təbii ehtiyac-larından və mühitindən qaynaqlanır (Çobanoğlu , 1999:78).

Foklor həm dar, həm də geniş mənada başa düşülür. Dar mənada folklor "şifahi xalq yaradıcılığı" və ya bəzən də "şifahi xalq ədəbiyyatı" kimi başa düşülür. Daha çox türk xalqlarının filologiyasında rastlanan "xalq ədəbiyyatı" (halk edebiyatı) əslində xalq yaradıcılığının bədii mətnlərinin yalnız şifahi, sözlü hissəsini əhatə edə bilir. Türkiyədə "folklor" daha çox xalq yardıcılığının anonim "xalq musiqisi" hissəsinə aid edilərək, o sahəni bildirən termin kimi işlədilməkdədir. Rus filologiyasında "folklor" "narodnoe ustnoe poetiçeskoe tvorçestvo" (şifahi xalq poetik yaradıcılığı) və ya "narodnoe poetiçeskoe tvorçestvo" (poetik xalq yaradıcılığı) kimi elmi ədəbiyyatlarda öz əksini tapır. Azərbaycan filologiyasının qaynağı türk və rus filologiyaları ilə sıx təmasda olduğundan "folklor" termininin elmi dövriyyəyə daxil edilməsi və formalaşması da qeyd olunan qaynaqlarla bağlı olaraq müəyyənləşmişdir. Çünki "Azərbaycan şifahi xalq ədəbiyyatı" adı bu gerçəkliyi özündə əks etdirir.

Folklor termini öz vətəni İngiltərədə və ingilisdilli olan Amerika Birləşmiş Ştatlarında olduqca geniş mənada işlədilməkdədir. Terminin əhatə dairəsinə xalq sənətinin bütün növləri-poeziya, musiqi, rəqslər, oyunlar, təsviri sənət, inamlar, adətlər və s. daxildir.

Folklorun əsas səciyyəsi müəyyənləşdirilərkən mədəniyyətin tipi olmaq etibarilə şifahilik əsas götürülmüşdür.

XX əsrin əvvəllərində (1920-1930-cu illər) Azərbaycan xalq yaradıcılığı nümunələri üzərində aparılan araşdırmalarda da bu mədəniyytin əsasını təşkil edən fəaliyyət sahəsinin terminologiyasının müəyyənləşdirilməsinə təşəbbüslər göstərilmişdir. Bu, xüsusilə, xalq yaradıcılığının öyrənilməsində geniş fəaliyyəti olan folklorçu alim Hənəfi Zeynallının araşdırmalarında müşahidə olunur. "Xalq yaradıcılığı"nın terminoloji əsaslarını, anlayışların semantik əhatəsini və terminlərin təyinatını müəyyənləşdirmək üçün ayrıca araşdırmalar aparmış və bu problemə məqalə həsr etmişdir. Məqalədən aydın olur ki, alim "folklor" üçün uyğun terminləri bir araya gətirmiş və onları təhlil etmişdir. Bunların içərisində "ağız ədəbiyyatı", "el ədəbiyyatı", "xalq ədəbiyyatı", "xəlqiyyat" kimi terminlər nəzərdən keçirilmiş, "ağız ədəbiyyatı" (şifahi ədəbiyyat) ilə "kağız ədəbiyyatı"nın (yazılı ədəbiyyat) arasında olan köklü fərqlər elmi əsaslarla izah edilmişdir (Zeynallı, 1961:89).

Azərbaycanda Sovet dönəmində hazırlanan folklor dərsliklərində də əsrin əvvəllərindəki ənənə davam etdirilmiş, xalq yaradıcılığı mənasında "Azərbaycan şifahi xalq ədəbiyyatı", (V.Vəliyev və P.Əfəndiyev) və "Azərbaycan folkloru" (V.Vəliyev) terminlərindən istifadə olunmuşdur. Müstəqillik dönəmində hazırlanan dərsliklərdə isə "Azərbaycan xalq ədəbiyyatı" (A.Nəbiyev) adı seçilmişdir.

Azərbaycan xalq yaradıcılığı olduqca geniş əhatə dairəsinə malikdir. Bunun içərisində zəngin milli mədəni miras vardır. Bu mədəni irs maddi (cızma, oyma, döymə, çəkmə, hörmə, tikmə, toxuma, yemək, geyim və s.) və qeyri-maddi (rituallar, oyunlar, rəqslər, musiqi , mərasim, şeir, sənət və s.) olmaqla iki yerə ayrılır. Milli mədəni irs nümunələrinə, əsasən, anonim, müəllifi məlum olmayan xalq yaradıcılıq nümunələri daxildir. Burada peşəkar folklor söyləyiciləri (məsələn, Avropada turbaturlar, slavyan kobzarı, Azərbaycan aşığı və s.) istisna təşkil edir. Yəni, sənətçi məlum olduğu halda yaradıcılıq fəaliyyəti folklor hadisəsi sayılır. Çünki onun yaradıcılığı ənənəvidir və xalq yaradıcılığının modellər üzərində qurulmuşdur, təkrarlanan, xalq yaradıcılığını yayan və yaşadan folklor hadisəsidir.

Ənənəvi xalq yaradıcılığı nümunələri qeyri-maddi mədəni irsin əsas hissəsini təşkil etməkdədir. Şifahi xalq yaradıcılığı da bu sahəyə aiddir. Azərbaycan şifahi xalq yaradıcılığı özündə şifahi yaradıcılığın rəngarəng janrlarını birləşdirir. Buraya mərasim folkloru, oyun folkloru, alqışlar, andlar, qarğışlar, sınamalar, ovsunlar, laylalar, sayaçı sözlər, holavarlar, bayatılar, ağılar, atalar sözləri, tapmacalar, əsatirlər, əfsanələr, rəvayətlər, lətifələr, qaravəllilər, nağıllar, dastanlar, xalq tamaşaları, aşıq yaradıcılığı və s. daxildir.

Folklor qədim mədəniyyət mənasında da başa düşülür. İnsanın mədəni fəaliyyəti geniş, çoxsahəli və rəngarəngdir. Bəşəriyyətin ən ibtidai dövrlərindən başlayaraq insan fəaliyyətinin müxtəlif mədəni təmayülləri mövcud olub. İbtidai cəmiyyətlərdə insanların həyatı təbiətlə, onun ayrı-ayrı təzahürləri ilə sıx şəkildə bağlı olub. Təbiətlə iç-içə yaşayan insan öz təbii, ilkin mədəniyyətini təbiətdən götürüb. Təqlid yolu ilə ona təsir etməyə çalışıb, təbiətin ritmlərini öz həyat ritmlərində təkrarlayıb. Təbiətin və onun bir hissəsi olan insanın genetik kodlarını, həyat və davranış formullarını müəyyənləşdirən ilahi başlanğıc həm təbii həyat ritmlərinin, həm ondan yaranan mədəniyyətin əsasını təşkil edir (Gökdemir, 2003:87).

Təbiətdə olduğu kimi, insan həyatının da ritmik strukturları, ilahi tamlığı tamamlayan harmoniyanın Tanrı tərəfindən kodlaşdırılmış, proqramlaşdırılmış mümkün fəaliyyət sferası mövcuddur. İnsanın mədəni fəaliyyətinə universal yanaşmada ibtidai mədəniyyətin daha çox təbii olduğu və öz təbii estetizmi ilə seçildiyi həqiqəti ilə qarşılaşırıq. Təbii mədəniyyət insanın təbii həyatıdır, onun dünya ilə münasibətləri və davranışlarıdır. İnsan doğulur, böyüyür, yaşa dolur, qocalır və ölür. İnsan bütün ömrü boyu kiçik və böyük detalları ilə eyni və ya oxşar situasiyalardan keçir. İnsan qida əldə edir, yeyir, içir-sevinir; ac qalır, ağrıyır, xəstələnir- kədərlənir. İnsan təbiət hadisələrinə heç zaman laqeyd qalmır; xoş hava, xoş ovqat doğurur; gündüz sevinc gətirir, gecə kədər. Əski dövrlərə getdikcə insanın həyatında təbiətin rolu çoxalır. İnsan psixologiyasının bir çox strukturları da təbiətə, onun təzahürlərinə qorxu, vahimə, heyrət, təəccüb, sevinc hisslərindən yaranıb. Əski görüşlərin, əski inancların, əski davranışların əsası ordan başlanır. Ora Tanrının yaratdığı təbiətin və təbii mədəniyyətin özüdür.

İbtidai insanın düşüncəsi də ibtidai düşüncədir. Bu düşüncə dual sistemli mexanizmi ilə xarakterizə olunur. Sistemin binar strukturu xaos-kosmos modelində gerçəkləşir. Düşüncənin bu tipi dünyanı xaos-kosmos qarşıdurmasında dərk edir. Dünya bütün strukturları ilə ikiyə bölünür; təsəvvürdə və təsəvvürün yardımı ilə yaranan elementlər bu qütblər ətrafında qruplaşır. Bu düşüncə başlanğıca aid olan hər şeyi müqəddəs sayır. İnsan da, məkan da, zaman da başlanğıcda sakral (müqəddəs) olur və qapalı şəkildə təkrarlanır. Düşüncə qapalı sistemdən çıxdıqda dolanan təkrar hərəkət yayvari şəkil alır və hər dəfə bir boy böyüyür, irəliyə doğru can atır və getdikcə öz sakral başlanğıcından uzaqlaşır və daha çox profan (adi) xarakter daşıyır.

İbtidai mədəniyyətin əsasında xaos-kosmos düşüncəsi və sakral-profan münasibəti durur. Düşüncənin və davranışın struktur əsası budur. Düşüncənin mifdən, hərəkətin, münasibətin arxaik ritualdan ayrılması, kosmoloji çağın bitməsi ilə ibtidai mədəniyyətdən onun strukturlarının transformasiya olunduğu və çeşidli paradiqmalar doğurduğu süni, mütəşəkkil mədəniyyətə keçid başlanır.

İbtidai mədəniyyət proqram potensialına görə sonrakı təzahür imkanlarının məcmusunu özündə ehtiva edir. Yəni o özünün ən sadə, bəsit və ibtidai formasında belə kifayət qədər yüksək və özündən sonrakı inkişafın bütün potensialını nüvəsində yerləşdirən, açıldıqca açılan, genişləndikcə genişlənən və heç zaman özünün ilkin başlanğıcındakı kod, məlumat və sxem səviyyələrindən heç olmazsa biri ilə genetik struktur əlaqəsini itirməyən, davamlı, fasiləsiz və mürəkkəb sistemdir.

Folklor söz sənətidir. Terminin izahından və bura daxil olan janrların xarakterindən də göründüyü kimi şifahi xalq yaradıcılığı və ya folklor söz sənətidir. Bütün janrlarda söz əsas ifadə rolunu yerinə yetirir. Bəzi janrlarda (əmək nəğmələri, xalq mahnıları və s.) isə buraya musiqi xarakterli ifadə vasitələri də daxil olur. Məlumdur ki, ədəbiyyat da söz sənətidir. Təbii ki, o zaman folklorun bədii ədəbiyyatdan fərqini izah etmək zərurəti yaranır. Folklor ədəbiyyatdan öz sosial təbiəti, həyati məzmunu, ideya mahiyyəti və bədii özünəməxsusluğu ilə fərqlənir.

Folklorun sosial təbiəti ilk növbədə ifadə etdiyi xəlqi məna ilə müəyyənləşir. Çünki xalq sözü həm "şifahi xalq yaradıcılığı"nda, həm də "folklor" da (folk-xalq) işlənmək-dədir. Xalq anlayışı bu yaradıcılıq formasının sosial mahiy-yətini və xüsusi sosial təbiətini diqqət mərkəzinə gətirir. Folklor xalq tərəfindən və xalq üçün yaradılan yaradıcılıqdır.

Folklorşünaslıqda folklor ilə ictimai məzmun arasındakı əlaqələrin üç tipini ayırırlar: sahibiyət, təmsil etmə, yaratma və ya yenidən yaratma. Sadəcə, "folklor" termininin tam bir şərhi, ilk əlaqə tipini qurur. Buna görə, folklor "insanların öyrənməsi", "insanların müdrikliyi, insanlara aid məlumat" və ya daha doğru olaraq "elm, geniş məlumat və ya bir xalqın öyrənməsi"dir. Folkloru müştrək bir qrupun

hamısı tərəfindən paylaşılan bir elm olaraq görən bu baxış, praktikada və nəzəriyyədə, xalqın sahibliyinin fərqli dərəcələrinə tətbiq olunur (Çobanoğlu, 2003:56).

Birincisi, folklor bir cəmiyyətdəki məlumatın hamısı ola bilər. Cəmiyyət üzvlərindən heç biri, o cəmiyyət dəyərlərinin hamısına tam şəkildə malik olmadığı üçün bu mənada folklor çoxları tərəfindən toplanmış, "insanların ənənəvi inancları və adətlərinin hamısının bütövü", kollektiv məlumat üzərində qurulmuş və mücərrəd olmaq məcburiyyətindədir.

İkincisi və əksi, folklor yalnız qrup üzvlərinin hər biri tərəfindən paylaşılan məlumat olaraq göz önünə alınmışdır. Bu tərif hər hansı bir xüsusi məlumatı kənarlaşdırır və ona yalnız bir cəmiyyətdəki seçilmiş mütəxəssislər yiyələnə bilərlər. Çünki bu tərif folkloru sadəcə "məşhur məlumat" şəklində məhdudlaşdırır. Bu vəziyyətdə folklor cəmiyyətin gerçək ortaq malı olar.

Üçüncüsü, Freyzerin tərif etdiyi kimi, bu gerçək ortaq bilik bütün imtiyazlarla cəmiyyətin bütün üzvlərinin iştirak etdiyi folklor tədbirləri, rituallar və mərasimlər daxil olmaqla "xalq kütlələrinin ortaq hərəkətlərində" bütun imtiyazları ilə ifadə edilə bilər.

Son olaraq, folklor cəmiyyətdəki hər bir şəxsin öz evinin və ailəsinin bağlı olduğu ənənə və adətlər sayəsində ona itaət etmələridir. Bu son şərh hər nə qədər nəzəri olaraq mümkünsə də, folklorun mühitini bu qədər dar olaraq təyin edən heç bir tərif mövcud deyil.

Folklor və onun ictimai məzmunu arasında meydana gələn əlaqələrdəki ikinci dəstənin quruluşu, İngilis Təkamül nəzəriyyəsi və Fransız ictimai antropologiyası üzərinə qurulmuşdur. Buna görə, folklor xüsusi bir ortaq tərz və eyni vaxtda formalaşan düşüncəni Andre Varacnak tərifindən qeyd edildiyi kimi: "Folklor, nəzəriyyəsiz kollektiv praktikalar, doktrinasız kollektiv inanışların hamısını təmsil edir." Bu vəziyyətdə, gerçək ənənələr, rituallar və digər adətlər onların əsasını təşkil edən düşüncə tərzinin nümayəndələridir.

Folklorun sosial təbiətini aydın təsəvvür etmək üçün onun tarixi-mədəni aspektini də diqqətdə saxlamaq lazımdır. Çünki folklor zamanla sıx bağlıdır. İbtidai cəmiyyət dövründə folklor qəbilə və tayfa yaradıcılığını ifadə edir. İlkin kollektivlik və sosiallıq öz başlanğıcını buradan başlayır. Folklorun sonrakı inkişafı tarixində də müxtəlif dövrlərin sosial qruplarının yaradıcılığı bu prosesə daxil olur və onu tarixi və sosial-mədəni elementlərlə zənginləşdirir.

## Nəticə

Tayfa mədəniyyəti dövrünün yaradıcılığı folklorda öz izlərini bu və ya başqa şəkildə saxlamaqdadır. "Soylama" qəbilə (soy) dövrünün, "boylama" (boy) tayfa dövrünün yaradıcılıq nümunəsi kimi orta çağ ozan ifasına və yazı ənənsinə daxil olmuş və "Dədə Qorqud kitabı"nda yazıya alınmışdır. Ata sözləri, bay ayıtları (bayatılar) da türk mədəniyyətində "Ata"nın və "Bay"ın daşıdığı sosial funksiyanı bir şəkildə ifadə etməkdədir. Əski türk cəmiyyəti Atası (cəmiyyətin mənəvi rəhbəri), Bayı (cəmiyyətin ruhani rəhbəri), Ozanı (söyləyicisi), Xanı (siyasi rəhbəri), Eli (xalqı, sosial təşkilatı və dövləti) olan səciyyəvi və ya özünəməxsus bir cəmiyyətdir. Bu cəmiyyətin şifahi yaradıcılığı türk xalqları folklorunun əsaslarını formalaşdırır. Azərbaycan folklorunun əsasında da bu gerçəklik dayanmaqdadır. Azərbaycan folklorunun sosial təbiəti ən qədim zamanlardan başlayaraq onun yaradılmasında iştirak edən istedadlı insanların, müxtəlif sosial qruplara aid olan zümrələrin yaradıcılıq fəaliyyətləri ilə müəyyənləşir. Azərbaycan folklorunun janrları Azərbaycan xalqının tarixi, iqtisadi, mədəni və mənəvi gerçəkliyini əks etdirməkdədir. Sayaçı sözləri, holavarlar və s. azərbaycanlıların təsərrüfat həyatını, laylalar ailə-məişət reallığını, atalar sözləri atanın sosial statusunu, bay ayıtları (bayatılar) mənəvi münasibətləri və s. ifadə etməkdədir. Azərbaycan folklorunun sosial təbiətinin müəyyənləşməsində daha çox atalar, bəylər, analar, uşaqlar və aşıqlar iştirak edirlər. Folklor janrlarının hər birində xalq həyatının bir gerçəkliyi, doğumu, inancı, oyunu-əyləncəsi, adət-ənənəsi, toy-düyünü, xeyir-şəri, yası və s. vardır.

Beləliklə, folklor həm həyatı, həm də sənəti gözəlləşdirir. Xalq yaradıcılığının estetikası üçün gözəlliyin təbiətdə və insanda, estetiklə əxlaqın, real və xəyalinin vəhdətində, aydın ifadəylə açıqlanması xarakerikdir.

Folklor əsərlərinin bədii əhəmiyyəti və effekti onun dinləyicilərə verdiyi estetik zövqlə müəyyənləşir.

## Ədəbiyyat

1. Abdülkadir, İ. (1987), Əski Türklərdə ve folklorda and. Məqalələr və araşdırmalar, Ankara, s. 317-330.
2. Albayrak, N. (2004), Ant// Ensklopedik türk xalq ədəbiyyatı terminləri. 540 s.
3. Boratav , P.N. (1973), Türk folkloru mənbələri. İstanbul. 1973, 240-243.
4. Çobanoğlu, Ö. (2002), Xalq elmi quramaları ve araşdırma yöntəmləri tarixine giriş. Ankara: Akçag, 190 s.
5. Damacı, R. (1952), Azərbaycan Türklərində niyyət ve fal ile ölüm və ağı, TFA c.II, sayı 32, s. 509-510.
6. Dorson, M. Richard. (1955), İngilis folklorşünasın ilk qrupu. Amerika folkloru jurnalı. C. 64, s. 267
7. Əfəndiyev, P.(1992), Azərbaycan şifahi xalq ədəbiyyatı (dərslik). Bakı,340 s.
8. Gökdemir, G. (2003), Türk mifologiyasının əasalar. Milli Folklor, sayı 60 (Kış 2003) s. 60-72; TDEA, c, I, s. 136-137.
9. Gökyay, O.Ş. (2000), Dədəm Qorqudun Kitabı, İstanbul, s. 148.
10. Xəlil, A. (2006), Əski türk savlarının semiotikası. Bakı: Səda, 280 s.
11. Kadri, H.K. (1927), Büyük Türk Lüğəti, İstanbul, 149 s.

**Rəyçi: fil.ü.f.d. Gülnar Qəmbərova**

Göndərildi: 18.06.2022 Qəbul edildi: 09.08.2022

## İÇİNDƏKİLƏR

### HUMANİTAR VƏ İCTİMAİ ELMLƏR
### HUMANITIES AND SOCIAL SCIENCES

**Aynur Yaqub qızı Mahmudova**
Uşağın psixi inkişafına dair irəli sürülən əsas nəzəriyyələrin ümumi səciyyəsi ................................ 6
**Arzu Tofiq qızı İsgəndərzadə**
Türk dillərində bağlayıcıların tədqiqi tarixindən ................................................................................ 10
**Şəhriyar Rəhman oğlu Cəfərzadə**
İnzibati hüquqi aktların qəbul edilməsinin nəzəri aspektləri ............................................................ 15
**Röya Mirtaleh qızı Mirtalıbova**
Beynəlxalq hüquqda yurisdiksiya məsələlərində nəzəri və praktiki problemlər:
ümumhüquqi və individual yanaşma ................................................................................................... 19
**Pərvanə Mirələm qızı Qasımova**
Folklorun səciyyəvi xüsusiyyətləri ........................................................................................................ 24

---

İmzalandı: 27.08.2022
Formatı: 60/84, 1/8
H/n həcmi: 3,75 ç.v.
Sifariş: 562

https://aem.az saytında çap olunub
**Ünvan:** Bakı şəh., Mətbuat prospekti, 529-cu məh.
“Azərbaycan” nəşriyyatı, 6-cı mərtəbə.
Tel.: +994 50 209 59 68
+994 55 209 59 68
+994 12 510 63 99
e-mail: zengezurda1868@mail.ru